Xalqın qəzeti!

# Xalq qəzeti

№ 152 (30556) 21 iyul 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az





# Azərbaycan həqiqətləri düşmənlərin yalan və böhtanlarını puça çıxarır

## Şuşada II Qlobal Media Forumunun açılış mərasimi




### Prezident İlham Əliyev forumda iştirak edib

**İyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumda iştirak edib və sualları cavablandırıb ***(Geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək)***.

* * *

Qeyd edək ki, 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən, 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayır.

Forum çərçivəsində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında dörd panel sessiya təşkil olunacaq. Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi aparacaqlar.

*(ardı 2-ci səhifədə)*

## Heydər Əliyev – jurnalistlərin dostu və hamisi



**Milli jurnalistikamızın salnaməsi Həsən bəy Zərdabinin ilk dəfə Azərbaycan dilində nəşr etməyə başladığı "Əkinçi" qəzetindən başlanır. Həmin tarixi gündən 149 il keçir. Bu illər ərzində Azərbaycan jurnalistikası daim inkişaf edir, formatı dəyişir, media industriyasının çağırışlarına cavab verir, yeni internet platformalarını və rəqəmsal reallıqları mənimsəməyə çalışır və qarşıya çıxan problemləri dəf etməyə səy göstərir. Amma bütün tendensiyalara və trendlərə rəğmən, milli jurnalistika fəaliyyətinin əsas prinsipi əzəli məram olaraq qalır – həqiqəti çatdırmaq, bu yolda məsuliyyət mədəniyyətini və dəyər daşıyan ənənələri sədaqətlə qoruyub saxlamaq.**

*(ardı 4-cü səhifədə)*

## Şoltsun Makrondan xəbəri varmı?

### *Sülh naminə Avropa təşəbbüsü və "Zvartnots"a enən Fransa hərbi təyyarəsi*

**Almaniya Kansleri Olaf Şoltsun Azərbaycan–Ermənistan münasibətləri və sülh gündəmi ilə bağlı açıqlaması maraqlıdır. Marağı şərtləndirən məqamlar yetərincədir. Əlbəttə, təzadlı durumun ayrı-ayrı fraqmentləri də həmçinin. Yazımızda əsasən bu barədə söz açacağıq.**

Cənab Şolts deyir ki, 2024-cü il Ermənistan və Azərbaycan üçün sülh ili ola bilər. Fikir ilk baxışdan nikbin səslənsə də, Kanslerin "ola bilər" ifadəsi tərəddüd yaradır. Deməli, sülhdə "ola bilərlik" dilemması varsa, "olmaya bilərlik" də mümkündür. Məsələ ondadır ki, bu günlərdə Bakı – İrəvan sülh sazişinin ən yaxın zamanda imzalanacağına dair təsəvvür formalaşmışdı. İndi isə Şolts ümumi şəkildə 2024-cü ildən danışır. Özü də onun dedikləri əminlik yox, yalnız ümiddir. Nəzərə alaq ki, ilin əvvəli olduğu kimi, sonu da var. Elə ötən il bu vaxtlar da deyilirdi ki, 2023-cü il sülh ili olacaq. Amma olmadı.

Görəsən, Almaniya Kansleri nəyə əsasən özünü optimizmə kökləyir? Suala cavab tapmaq mümkünsüz olsa da, alman liderin fikirlərinə diqqət yetirək. O deyib ki, Britaniyada keçirilmiş Avropa Siyasi Birliyinin 4-cü Zirvə toplantısı çərçivəsində bir çox başqa müzakirələr aparılıb. Cənab Şolts Ermənistanın baş naziri Nikol Paşinyanla və Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətin özü üçün önəmli olduğunu bildirib. Ardınca isə 2024-cü ilin Cənubi Qafqaz regionu baxımından son dərəcə əhəmiyyətli olduğunu vurğulayıb. Ən əsası isə Şolts bildirib ki, tərəflər bir-birinə qarşı effektiv və cəsarətli addımlar atmağa davam edərlərsə, 2024-cü il sülh ili ola bilər.

Ermənistanın baş naziri Londonda Azərbaycan Prezidenti ilə görüşdən imtina etdi. Bu durum istər-istəməz düşündürür. Hər halda, Şolts məsələdən xəbərsiz olmaya bilməz. Kanslerin xəbərdar olduğu bir durum da var ki, onu sonda diqqətə çatdıracağıq. Amma hələlik onu deyək ki, Paşinyanın dövlətimizin başçısı ilə təmasdan boyun qaçırması son günlərin pozitiv sülh ovqatını şübhə altına alır. Nikol ölkəsinin barış niyyətindən uzaqlığını göstərir. Eyni zamanda, bu imtina onu da göstərir ki, Ermənistanla Azərbaycan arasında həllini tapmamış məsələlər var.

Yeri gəlmişkən, Bakı – İrəvan sülh gündəmi üzrə problemlərin mövcudluğunu ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller bir neçə gün əvvəl keçirdiyi brifinqdə də vurğulamışdı. Cənab Miller həmin problemlərin nədən ibarət olduğunu açıqlamasa da, tərəfləri kompromislərin və çətin qərarların gözlədiyini dilə gətirmişdi. Deməli, Birləşmiş Ştatlar da durumun dramatikliyi üzərinə fokuslanır. Baxmayaraq ki, Miller də Şolts kimi ümumən pozitiv ab-havaya köklənməyi unutmur. Ancaq departament sözçüsünün unutmadığı bir məqam da var. O, ölkəsinin vasitəçilik səylərini davam etdirəcəyindən, mövcud istiqamətdə inad göstərəcəyindən söz açmışdı.

İndi Almaniya Kanslerinin fikirləri də vasitəçilikdə inad notlarını işə salmaqdır. Ancaq, o, bilavasitə Avropanın rolunu qabardır. Belədə Paşinyanın Prezident İlham Əliyevlə görüşdən imtinası xüsusunda bəzi ekspertlər tərəfindən irəli sürülmüş bir fikri də diqqətə çatdırmaq istərdik. Onlar bildirirlər ki, Londonda görüş təşəbbüsü Britaniyanın idi və buna görə də Ermənistanın baş naziri təmasdan boyun qaçırdı. Nəzərə alsaq ki, Britaniya özünü "köhnə qitə"dən ayrı tutur, sözügedən mülahizəyə, müəyyən qədər, haqq qazandırmaq mümkündür. Amma hər halda Nikolun imtinası bununla bağlı səsləndirdiyimiz fikirləri arxa plana keçirmir və bir daha onu deməyə əsas verir ki, Ermənistan Azərbaycanla sülhdən yayınır. Həm də ona görə yayınır ki, sülhün vasitəçilik formuluna siyasi sərmayə yatırmaq yolunu tutur. Vasitəçiliyin geosiyasi rəqabət kontekstindəki özünə faydalı tərəfləri görmək və tapmaq barədə düşünür. Əlbəttə, belə yanaşma səmimiyyətdən tam uzaqdır.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycanın xarici ticarət coğrafiyası dünyanı əhatə edir



Səhifə ⇨ 8

## Basketbolçularımızdan da Olimpiya medalları gözləyirik!



Səhifə ⇨ 11

## Milli neft şirkətimiz də "yaşıl"laşır




Səhifə ⇨ 9

# Şuşada II Qlobal Media Forumunun açılış mərasimi






*(əvvəli 1-ci səhifədə)*

Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat veriləcək.

Xatırladaq ki, "4-cü Sənaye inqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumu ötən il iyulun 21-23-də keçirilib.

***AZƏRTAC***

# Forum iştirakçılarının şərəfinə ziyafət







**İyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun iştirakçılarının şərəfinə ziyafət verilib.**

Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşanın açıq səması altında təşkil edilən ziyafətdə Azərbaycan milli mahnıları və rəqsləri ifa olunub, qonaqlar milli mətbəximizin ləziz təamlarından dadıblar. "Yallı" rəqsinin ifası isə bir daha xalqımızın həmrəyliyini, birliyini, sülhsevərliyini nümayiş etdirib. Milli mahnı və rəqslərimiz iştirakçılarda xoş ovqat oyadıb.

Milli mətbuatımızın 149 illiyi münasibətilə təşkil edilən 2-ci Şuşa Qlobal Media Forumunda ümumilikdə 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, o cümlədən, 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media subyekti iştirak edir. Qlobal Media Forumunun iştirakçıları arasında əcnəbi media təmsilçiləri ilə yanaşı, Azərbaycanın media nümayəndələri, ekspertlər və rəsmilər də var.

Forum iyulun 22-dək davam edəcək.

# Media Forumunun xarici qonaqları Füzulidə

**II Şuşa Qlobal Media Forumunun xarici qonaqları Füzulidəki dağıntılarla tanış olub.**

Xarici qonaqlara Füzuli rayonunda erməni vandallarının törətdiyi dağıntılar barədə məlumat verilib.

Qonaqlar erməni vandallarının işğal dövründə törətdiyi dağıntıların canlı şahidi olublar.

Qeyd edək ki, "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçiriləcək forumda 50-ə yaxın ölkədən 150-dən çox xarici qonaq, o cümlədən, 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumu qatılır.

***XQ***



# Prezident İlham Əliyevin Şuşa mediaforumundakı çıxışı Türk dövlətləri mediasında

**Türkiyənin aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin II Şuşa Qlobal Media Forumundakı çıxışını geniş işıqlandırıb. Qardaş ölkənin media qurumları Azərbaycanın dövlət başçısının Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın bu yaxınlarda Türk Dövlətləri Təşkilatının Şuşada keçirilən qeyri-rəsmi sammitində iştirakı ilə bağlı dediklərinə xüsusi diqqət çəkib. Azərbaycan Prezidentinin Kipr türklərinə dəstək bəyanatının Türkiyə Silahlı Qüvvələrinin Kiprdə sülhün təmin edilməsi üzrə əməliyyatının başlanmasının 50-ci ildönümündə səsləndirildiyi vurğulanıb.**







Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının inkişaf perspektivləri ilə bağlı fikirləri də yüksək qiymətləndirilib. Yaxın Şərqdəki vəziyyətə, xüsusilə Fələstin dövlətinə münasibətdə Azərbaycan liderinin sözlərinə xüsusi diqqət yetirilib.

***

Qırğızıstanın "turktoday.info" informasiya agentli də Azərbaycan Prezidenti İlham Əliyevin İkinci Şuşa Qlobal Media Forumundakı çıxışına geniş yer ayırıb.

Agentlik Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının inkişaf perspektivləri ilə bağlı fikirlərini  yüksək qiymətləndirilib. Qeyd edilib ki, Azərbaycan Prezidenit Pakistan mediasından hər zaman qardaş dəstəyi gördüyünü də söyləyib. Bundan başqa, Prezident İlham Əliyev deyib: "Biz istəyirik ki, Azərbaycanda keçiriləcək COP29 həmrəylik tədbiri olsun".

***XQ***



# Naxçıvan xəbərləri





## “İqlim dəyişikliyi və insan hüquqları”

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Hüquq və İnsan Haqları İnstitutu və BMT-nin İnkişaf Proqramının birgə təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində keçirilən “İqlim dəyişikliyi və insan hüquqları” mövzusunda konfransda dövlət və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri və ekologiya-könüllüləri iştirak ediblər.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində muxtar respublikada həyata keçirilən tədbirlər barədə məlumat verib. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Günay Rzayeva hazırda dünyada mövcud olan qlobal iqlim problemlərinin insan hüquqlarının müdafiəsi və təmini baxımından da bir sıra çətinliklər yaratdığını bildirib və iqlim dəyişikliyi kontekstində insan hüquqlarının müdafiəsi üçün qlobal strategiyaların həyata keçirilməsinə, habelə əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə ehtiyac olduğunu vurğulayıb.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı Rezident Nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo qlobal iqlim dəyişikliyinin müxtəlif sahələrə təsiri, bu istiqamətdə yeni yanaşmaların və birgə əməkdaşlığın əhəmiyyətindən danışıb.

Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı Vüsalə Muradxanlı və Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin əməkdaşı Aysel Nəcəfli slayd vasitəsi ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası, BMT-nin Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri və COP29 prizmasından Azərbaycan mövzularında ətraflı məlumat veriblər.

Konfransda ölkəmizdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə ilə bağlı mühüm səylər göstərildiyi, o cümlədən Dövlət proqramları, fəaliyyət planları və strategiyaların qəbul edilərək icra olunduğu diqqətə çatdırılıb.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

## Gömrük və ticarətin asanlaşdırılması

**Naxçıvan Baş Gömrük İdarəsində I yarımilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub. Bu barədə Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsindən qəzetimizə verilən məlumatda bildirilib.**



Baş idarənin rəisi, gömrük xidməti general-mayoru Vüqar Əliyev çıxış edərək Dövlət Gömrük Komitəsində 2024-cü ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsində müzakirə olunan məsələlər və qarşıda duran hədəflər barədə məlumat verib, ötən il ərzində Naxçıvan Muxtar Respublikasında gömrük işi sahəsində dövlət siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlər, əldə olunan nailiyyətlərin son dövrlərdə gömrük orqanlarında aparılan islahatlarla əsaslandığını bildirib.

Daha sonra 2024-cü ilin ilk 6 ayında görülmüş işlərlə bağlı hesabat, tabeli struktur bölmələrinin rəhbərlərinin məruzələri dinlənilib. Bildirilib ki, muxtar respublikada gömrük işi sahəsində daha yüksək nailiyyətlərin əldə olunması, qarşıya qoyulmuş vəzifələrin vaxtında və keyfiyyətlə icra olunması əsas hədəflərdəndir. Ticarətin asanlaşdırılması, gömrük orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəldilməsi, qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarının qarşısının alınması da önəmli vəzifələrdəndir. Sahibkarlıq subyektlərinin, vətəndaşların və gömrük əməkdaşlarının məmnunluğunun artırılması, ölkəmizin milli və iqtisadi təhlükəsizliyinin etibarlı şəkildə qorunması üçün bütün imkanlar bundan sonra da səfərbər ediləcək.

*Səbuhi HƏSƏNOV*
*XQ*

# Hikmət Hacıyev: Şuşa övladlarının qayıdışına sevinir

**Şuşa 30 illik ayrılıq və ağrı-acıdan sonra övladlarının öz evlərinə qayıdışına sevinir.**



Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X” sosial şəbəkəsində yazıb.

“Şuşa şəhərindən olan keçmiş məcburi köçkünlər üçün yeni salınmış yaşayış massivində sakit və xoşbəxt şənbə səhəri. Uşaqlar əylənir, qocalar nərd oynayır, mühəndislər tikintini davam etdirirlər. Quşlar civildəşir, arada yüngül yağış yağır. Sanki təbiət də 30 illik ayrılıqdan sonra əsl sakinlərinin öz evlərinə qayıtmasına sevinir”, – paylaşımda deyilir.

*XQ*

# “Birləşdik – 2024” heyətimiz Vətənə qayıdıb



**Azərbaycan Ordusunun Qazaxıstan Respublikasında keçirilən “Birləşdik – 2024” beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimində iştirak edən şəxsi heyəti, hərbi gəmiləri və aviasiya vasitələri Bakıya qayıdıb. Bu barədə XQ-yə Müdafiə Nazirliyindən bildirilib.**



Xatırladaq ki, “Birləşdik – 2024” beynəlxalq təlimində ölkəmizi Quru Qoşunlarının komando bölmələrinin bir qrup hərbi qulluqçusu, Hərbi Hava Qüvvələrinin paraşüt-desant və axtarış-xilasetmə qrupu, Su-25 təyyarələri, eləcə də Hərbi Dəniz Qüvvələrinin 3 gözətçi və 2 desant gəmisi yüksək səviyyədə təmsil edib.

# “Seçkilərə hazırlıqla bağlı süni əngəllərlə qarşılaşmırıq”

**Siyasi partiyalar da növbədənkənar parlament seçkilərinə ciddi hazırlaşırlar. Qeydiyyatda olan 26 siyasi partiyadan 25-i artıq seçkilərdə iştirak etmək qərarı verib və namizədlərini irəli sürməyə başlayıb. Bu vaxta qədər 25 siyasi partiyanın 585 səlahiyyətli nümayəndəsi MSK- da qeydiyyatdan keçib.**

Seçkilərə hazırlıqla ilə əlaqədar siyasi partiyaların bir neçəsi ilə əlaqə saxladıq.

Azərbaycan Milli Cəbhə Partiyasının nümayəndəsi Vüsal Qarayev bildirdi ki, parlament seçkilərinə hazırlıq işləri yüksək səviyyədə gedir. Prezident İlham Əliyev növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə əlaqədar sərəncam imzalayandan bir neçə gün sonra seçki qərargahı yaratmış və hazırlıq işlərinə başlamışıq. Hazırda Mərkəzi Seçki Komissiyasında 6 səlahiyyətli nümayəndəmiz var. Milli Cəbhə Partiyasının 59 rayon təşkilatı fəaliyyət göstərsə də, hələlik, 41 seçki dairəsi üzrə namizəd irəli sürmüşük.

Seçkilərə hazırlıqla bağlı bu vaxta qədər hər hansı bir problem və ya süni əngəl olmayıb: “Baxmayaraq ki, müxalifət partiyasıyıq, istər səlahiyyətli nümayəndələrimizin təsdiqi, imzatoplama kampaniyası, istərsə də namizədliyin irəli sürülməsində hər hansı ayrı-seçkiliklə qarşılaşmamışıq”.

* * *

“Hazırda seçki prosesində yaradılmış bərabərlik, ədalət prinsipi bizi qane edir. Partiyamızın üzvləri sərbəst şəkildə namizədliyini irəli sürür, namizədliyi təsdiqlənənlər imza vərəqələrini alıb işlərini davam etdirirlər. Seçkiyə hazırlıqla bağlı heç bir narazılığımız yoxdur”.



Bu fikirləri əməkdaşımızla söhbətində Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiya sədrinin müavini Niyaməddin Orduxanlı bildirdi.

Altmışdan çox seçki dairəsindən namizəd irəli sürməyə çalışdıqlarını deyən partiya təmsilçisi bildirdi ki, təşkilatımız getdikcə güclənir. Təxminən, 70-ə yaxın rayon təşkilatımız var. Qanunvericiliklə 60-dan çox seçki dairəsindən namizəd olmalıdır ki, ödənişsiz efir vaxtından istifadə edək. ƏHD partiyasının potensialı buna imkanı verir. Partiyamızın seçki təcrübəsi böyükdür. İyirmi ildən artıqdır ki, seçkilərdə iştirak edirik. Çoxlu sayda tanınmış siyasətçi, politoloq partiyamızın üzvüdür. İndiyə qədər parlamentdə yalnız bir nəfərlə – partiyamızın sədri Qüdrət Həsənquliyevlə təmsil olunmuşuq. Amma istəyirik ki, budəfəki seçkilərdə daha çox mandat əldə edək”.

N.Orduxanlı dedi ki, seçki prosesi başlanandan indiyədək onların namizədləri üçün problem yaradılmayıb.

*Əliqismət BƏDƏLOV*
*XQ*

# Kiberhücumçu şəbəkə aşkar edildi

**Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin əməkdaşlarının həyata keçirdikləri növbəti əməliyyat nəticəsində bank kartlarından xüsusi proqramlardan istifadə etməklə maddi vəsaitlər oğurlayan Cavanşir Rüstəmzadə, Mehman Əsədov və Novruz Qulami saxlanılıblar.**




Nazirliyin mətbuat xidmətindən XQ-yə verilən məlumata görə, araşdırmalarla müəyyən olunub ki, Mehman Əsədov vətəndaşlara məxsus kartların məlumatlarını müxtəlif üsul və vasitələrlə əldə edib. Sonradan o, kartlardan mənimsədiyi külli miqdarda pulu Cavanşir Rüstəmzadə və Novruz Qulaminin adına açılmış hesablara köçürüb. Pul müxtəlif bankomatlarda nağdlaşdırılaraq saxlanılan şəxslər arasında bölünüb.

Dəstə üzvləri bundan əlavə, internet üzərindən onlayn maliyyə əməliyyatları aparan vətəndaşların ödəmə sistemlərindəki məlumat bazalarına da müdaxilə edərək onların rekvizitlərini əldə ediblər. Saxlanılanların istifadələrində olan kompüter avadanlıqlarına və məlumat daşıyıcılarına baxış zamanı çoxsaylı elektron sübutlar və digər dəlillər müəyyən edilib. Faktlarla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

*XQ*

# Arxa cəbhənin fədaisi

## *Qarabağ savaşı zamanı Rusiya mediası onu “Azərbaycanın söz əsgəri” adlandırıb*

**Haqqında çox eşitmişdik. Rusiyanın müxtəlif telekanallarında, xüsusilə də, sosial şəbəkədə çıxışlarını izləmiş, məqalələrini oxumuşduq. O, şimal qonşumuzun ermənilərin dominantlıq etdiyi yazılı və elektron mediasında Azərbaycanın haqq səsini hayqırır, tarixi həqiqətlərini, ədalətli mübarizəsini fakt və arqumentlərə söykənərək, təbliği üçün bütöv bir beyin mərkəzinin görə biləcəyi işi təkbaşına yerinə yetirir. Və bunu təkcə rusdilli auditoriyanın deyil, beynəlxalq ictimaiyyətin də diqqətinə operativ formada, sanballı şəkildə çatdırır. Müsahibimizi siz də tanıyın: Texnika elmləri doktoru, Əməkdar elm xadimi, Rusiya Memarlıq və İnşaat Elmləri Akademiyasının, Azərbaycan Jurnalistlər Birliyi və Rusiya Federasiyası Jurnalistlər İttifaqının üzvü, publisist və ictimai xadim, professor Kamran Rüstəmov. Kamran müəllim Moskvada yaşayır, Bakıya qısamüddətli məzuniyyətə gəlib. Biz də fürsəti qaçırmayıb, onu redaksiyamıza dəvət etdik...**

***

**– Kamran müəllim, ixtisasınız texniki sahə üzrədir. Amma Moskvada ermənilərin anti-Azərbaycan təbliğatına qarşı tarixçi, ədəbiyyatşünas, hətta etnoqraf kimi fəal çıxışlar edirsiniz. Maraqlıdır, texnika elmləri doktorunun siyasi publisist, bloqer statusunda çıxış etməsi çətin deyil?**

– Xeyr, çətin deyil. Birincisi, ona görə ki, düşmənə qarşı müharibəni təkcə silah-sursatla yox, həm də sözlə udmaq lazımdır. Əsas prinsiplərdən biri budur və mən bunun vacibliyini başa düşürdüm. Təbliğat maşını zəif olan ölkənin hərbi sisteminin uğur qazanması da müşkül olur. Konkret misal çəkmək istəyirəm. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 44 günlük müharibənin gedişində xarici KİV-lərə verdiyi çoxsaylı müsahibələri zəfərin əldə edilməsində olduqca böyük rol oynadı. Əslində, düzgün qurulmuş həmin təbliğat yaşadığı ölkədən asılı olmayaraq, 60 milyon azərbaycanlını bir araya gətirdi, yumruq kimi birləşdirdi.

Ermənilər istər Rusiyada, istərsə də dünyada Azərbaycana, Türkiyəyə, İslama qarşı təbliğat sistemini yaxşı qurublar. Bu proses yüz illərdir davam edir. Onlar birinci səlib yürüşündə məhz türklərə qarşı çıxış ediblər. Həmin genetika bu gün də onların canından çıxmayıb. Biz bu sahədə haylara ona görə uduzurduq ki, həqiqəti deməyə, dünyaya çatdırmağa çətinlik çəkirdik. Çünki həqiqət birdir, yalan isə min. Ermənilərin tarixinə, ədəbiyyatına həkk elədikləri yalanları açmaq lazımdır. Vaxtında Azərbaycan, Rusiya, Avropa, dünya ədəbiyyatını və tarixini yaxşı oxumuşam. Hələ 1992-ci ildə aldığım biliklərdən çıxış edərək saxtakar erməni alimlərinin cavablarını verirdim. Haylara qarşı əsas fəaliyyətə 2020-ci ilin avqustunda, Vətən müharibəsinin başlanmasına bir ay qalmış başladım. İnternetdə ilk sosial platformaları məhz həmin dövrdə yaratdım.

**– Bizim ermənilərin yalanla dolu təbliğat maşınına qarşı uzun müddət effektiv mübarizə apara bilməməyimiz danılmaz faktdır. Xüsusilə, beynəlxalq miqyasda erməni lobbisinin, diasporunun qarşısına sanballı cavablar qoymamışıq. Amma 44 günlük Vətən müharibəsində bu sindrom sındırıldı.**



**Həmin ideoloji cəbhənin döyüşçülərindən biri də siz olmusunuz. O müddətdə erməni saytlarının feyk-xəbərlərinə 500-dən artıq cavab yazmısınız...**

– Mən onları öz silahları ilə, erməni mənbələrinə istinad edərək vururdum. Yadımdadır, o dövrdə dəvət olunduğum bir məclisin qonaqları, əsasən, ermənilər idi. Tanıdığım ermənilərdən biri məndən soruşdu ki, bəs, bura gəlməyə qorxmadın? Ona cavab verdim ki, əgər ermənidən qorxsaydım, daha mən olmazdım. Bizim saxtakar ermənilərə qarşı mübarizəmizdə əsas problem ondan ibarətdir ki, Rusiya cəmiyyətinin yeni nəslinin Azərbaycan tarixi, ədəbiyyatı, dövlətçiliyimiz barədə təsəvvürü yoxdur. Təxminən 2-3 milyon erməninin yaşadığı Rusiyanın bütün nöqtələrində öz təbliğatlarını aparırlar. Bunu nəzərə alaraq hazırladığım məqalə və məlumatları Kalininqraddan Vladivostoka qədər hər yerə yaymağa çalışıram. Yəni tarixi həqiqətləri ən müxtəlif yollarla rusdilli ictimaiyyətə çatdırıram. O cümlədən, dünyanın 44 ölkəsində yaşayan ruslara və rusdillilərə də həmin məlumatların çatdırılması çox vacibdir. İstifadə etdiyim mənbələr isə tarixçilərin, şərqşünasların, ədəbiyyatçıların əsərləri olur. Onlar, bir növ, mənim üçün döyüşə girməyə silah hazırlayanlardır.

**– Hiss olunur ki, dediyiniz sahələr üzrə güclü mütaliəniz var. Xatırlayırıq, Vətən müharibəsinin gedişində Rusiya saytlarının biri sizin haqqınızda “Meydanda təkbaşına döyüşən əsgər” ifadəsini işlətmişdi. Bunu oxumaq qürurverici idi...**

– Bilirsiniz, qarşınızda duran düşmən güclü olanda silahını yaxşı “itiləməli” olursan. Yəqin Zatulini, Miqranyanı, Simonyanı tanıyırsınız. Onların arxasında duranlar Rusiya siyasi elitasında yüksək mənsəb sahibləridir. Həmin Miqranyan 2020-ci ilin oktyabrında Azərbaycan rəhbərliyi haqqında təhqiramiz məqalə yazmışdı. Gecə yatmadım, onun cavabını yazdım və səhər saat 7 olmamış məqaləm saytda idi. O cavaba görə məni məhkəməyə verdilər, materialı saytdan çıxartdılar, sonra bərpa etdirdim. Dörd dəfə eyni proses baş verdi, amma o cavab bu gün də yerində durur. Orada tarixi fakt və arqumentlərlə Miqranyanın cavabını elə vermişdik ki, ondan sonra, o, Azərbaycanın və onun rəhbərliyinin əleyhinə heç nə yazmadı. Əksinə, Miqranyan indi özünküləri söyür.

**– Dediniz ki, ermənilər Rusiyanın və dünyanın informasiya məkanında daha fəaldırlar. Sizcə, nədən bizim o sahə üzrə mütəxəssislərimiz haylar kimi operativ və çevik işləyə bilmirlər?**

– Hərbidə olduğu kimi, informasiya müharibəsində də baş qərargah olmalıdır. Bu fəaliyyəti düzüb-qoşan və istiqamətləndirən mərkəzə ehtiyac var. Bunun üçün sadə bir mexanizm qurmaq mümkündür. Cənab Prezident ayrı-ayrı müstəvilərdə və bütün sahələr üzrə sadə və anlaşıqlı dildə ermənilərin cavabını verir. Hesab edirəm ki, onun dünyaya ünvanladığı tezis və mesajları Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diaspor təşkilatları yerli dillərdə geniş yaymalıdırlar. Əlimizdə olan imkanlardan da yetərincə istifadə edə bilmirik. Burada operativlik əsas amildir. Baxın, bu gün səhər erməni saytlarında oxuduğum feyk-xəbərə cavab yazdım və onu minyonlarla izləyicimlə paylaşdım. Doğrudur, bunun həm redaktə, həm də tərtibat və təqdimat işlərini təkbaşıma görürəm. Müasir texnologiyanı yaxşı bilməyim karıma gəlir. Vaxt az, tələb çox olduğuna görə həmin material dərhal portala yerləşdirilməlidir. Elə günlər olub ki, səhər saat 6-da kompüterin arxasında oturmuşam, bir də axşam saat 8-də qalxmışam. Bəli, vahid sistemə, beyin mərkəzinə ehtiyacımız var. Necə ki, 44 günlük savaşda əsgər və zabitlərimizin düşmənə qarşı uğurlu əməliyyatlarını canlı olaraq izləyirdik, bu sistem də elə işləməlidir.

**– İdeoloji müstəvidə görülən və qarşıdakı vacib işlərdən danışdınız. İcazənizlə, söhbətimizi siyasi müstəviyə keçirərdik. Müharibədə qələbə çaldıq, separatçı rejimi torpağımızdan təmizlədik. Bəs, Qarabağ xülyasına düşən ermənilər nəticədə nələri itirdilər?**

– Hesab edirəm ki, indiki mərhələnin tələbi ondan ibarətdir ki, ermənilərin Azərbaycana vurduğu ziyanı hesablayıb masa üzərinə qoymalıyıq. Sülh danışıqlarında müəyyən güzəştlər ola bilər, amma baxır nədə. Soruşursunuz ki, ermənilər nələri itiriblər. Hələ o dövrdə haylar Qacar dövlətini satdılar ki, İrəvanı ələ keçirmək planını reallaşdırsınlar. Amma Rusiya çarının Qafqazdakı canişini Paskeviç İrəvana daxil olanda haylara deyib ki, bəs deyirdiniz ki, bura xristian şəhəridir. Bu, necə xristian şəhəridir ki, bir dənə də olsun kilsə yoxdur? Məcburiyyət qarşısında qalıb, Paskeviçin məsləhəti ilə, axırda Rəcəb Əli məscidini qriqorian kilsəsinə çeviriblər. Haylar Osmanlı imperiyasında əla şəraitdə yaşayırdılar. Türklərə xəyanət etdilər, Birinci dünya müharibəsində türkləri arxadan vurdular. Daha sonra da gəlib Azərbaycanda məskunlaşdılar. Burada geniş imkanlara, yüksək imtiyazlara malik idilər. Bakının ən gözəl yerlərində yaşayırdılar, rəhbər vəzifələrdə işləyirdilər, gəlirli sahələrdə yerləşmişdilər. Axırda nə oldu? Bizi də satdılar. Qətiyyən şübhə yoxdur ki, indi də rusları satacaqlar. Bu, normal hay genetikasıdır. Torpağında yer ayırana xəyanət etdiklərinə, çörək verəni arxadan vurduqlarına görə həmişə düzdə qalıblar. Bu gün də anlamaq istəmirlər ki, Azərbaycana qarşı hansısa şərtləri irəli sürməklə, sülhdən yayınmaqla yenə özlərini pis vəziyyətə salacaqlar. Məgər müharibəni biz başladıq? Şahmatda deyildiyi kimi, “qaralar başlayır və uduzurlar”. Onlar siyasətin şahmat taxtasında daim uduzmuş qara piyada fiqurları olublar. Son vaxtlar ermənilərə “züytutanlar” hayların Qarabağa qayıtması mövzusunu ortaya atıblar. Bəs 300 minə yaxın azərbaycanlını Zəngəzura kim qaytaracaq? Bizim ora, ermənilərin Qarabağa qayıtması fərqli anlayışlardır. Ona görə ki, azərbaycanlılar Zəngəzurda, Göyçədə əsrlər boyu yaşayıblar və doğma torpaqlarına qayıdacaqlar. Amma haylar buraya çar I Nikolayın sərəncamı ilə XIX əsrdə köçürülüblər. Qarabağda erməni mədəni irsinin dağıdılmasından dəm vururlar. Məgər orada hayların mədəni irsi vardı? Olmayan şeyi necə dağıtmaq olar? Azərbaycan bu gün tarixi reallığı və tarixi ədaləti bərpa etməklə məşğuldur.

**– Sonuncu sualımız: sülh müqaviləsi imzalanandıqdan sonrakı müddətdə ermənilərlə dinc yanaşı, birgə yaşayış mümkün ola bilərmi?**

– Moskvada ermənilərlə tez-tez görüşürəm. Birinci səlib yürüşündən üzü bəri on əsrdir ki, onların qanlarından türklərə, müsəlmanlara qarşı nifrət təmizlənməyib. Sabah Qarabağa qayıdıb desinlər ki, salam-əleykum, biz qonşuyuq, qardaşıq, – boş söhbətlərdir. Bir kəlmə sözlərinə belə inanmıram. Getsinlər rusların verdiyi torpaqda yaşasınlar. Onsuz da neçə əsrdir ki, onların dotasiyası ilə dolanırlar. İndi bundan da əlləri üzülmək üzrədir. Yenə yeganə ümid yerləri Azərbaycan olacaq.

***

Müsahibəyə sərlövhəni “Arxa cəbhənin fədaisi” yazsaq da, biz Kamran Rüstəmovu öndə vuruşan yorulmaz və yenilməz döyüşçü kimi təsəvvür edirik. Təxminən bir ay bundan əvvəl 76 yaşını qeyd etmiş həmsöhbətimizə möhkəm cansağlığı, bundan sonrakı “döyüşləri”ndə tükənməz əzm və qələbələr diləyirik.

**Söhbəti qələmə aldı:**
**İ.HƏSƏNQALA**
**XQ**

# Şoltsun Makrondan xəbəri varmı?

**(əvvəli 1-ci səhifədə)**

Bəli, Kansler Şolts da Avropa vasitəçiliyi məntiqini qabartmaqla, Azərbaycan–Ermənistan sülh sazişi zəminində geosiyasi rəqabətin sistemli xarakter aldığını göstərməkdədir. O deyir ki, Avropa hər iki ölkəni qarşılıqlı şəkildə sülhə gəlmələri yolunda müşayiət edəcək. Ən əsası isə Şolts bu müşayiətin uzun müddət davam edəcəyini vurğulayır. Elə bu deyimdən də alman siyasətçinin 2024-cü ili sülh ili kimi qələmə verməsindəki “ola bilər” məntiqi yerinə düşür və istər-istəməz şübhələr bir qədər də artır. Hərçənd, Şoltsun “uzunmüddətli müşayiət” ifadəsində Avropanın Azərbaycan və Ermənistan arasında sülh sazişinin bağlanmasından sonrakı duruma nəzarət trayektoriyası da nəzərə çarpır. Yəni, alman Kansler hesab edə bilər ki, tərəflərin barış mühitində gedəcək yolları var. Elə bir yol ki, Şoltsun dili ilə desək, “bu iki qonşu ölkə arasında uzunmüddətli yaxşı əməkdaşlığı təmin edəcək”. Necə deyərlər, avazın yaxşı gəlir...

İndi gələk, haqqında sonda söz açacağımızı bildirdiyimiz məsələyə. Yəni, Almaniya Kanslerinin Avropa vasitəçiliyi xəttinə köklənərkən, nədən mütləq xəbərdar olmalı olduğunu diqqətə çatdırmağa. Diqqətə çatdıraq və deyək ki, Avropa dedikdə həm də Fransa nəzərdə tutulur. O Fransa ki, nəinki “köhnə qitə”nin, bütövlükdə, kollektiv Qərbin Cənubi Qafqazda sülhlə bağlı bütün təşəbbüslərinə, bir növ, veto qoymaqla məşğuldur. Bu mənada ölkə prezidenti Emmanuel Makronun Avropa Siyasi Birliyinin 4-cü Zirvə toplantısı çərçivəsində keçirdiyi mətbuat konfransı zamanı dilə gətirdikləri həyasızlığın anatomiyasıdır.

Haşiyə çıxaq ki, bir zamanlar Avropa Siyasi Birliyinə Azərbaycan və Ermənistan nizamlamasının müsbət platforması kimi baxılırdı. Makron artıq ikinci dəfədir ki, bu platformanı heçə endirir. Birinci dəfə destruktivliyini ötən il göstərmişdi. Yada salaq ki, o vaxt Avropa Siyasi Birliyinin Zirvə toplantısı Qranadada gerçəkləşirdi. Fransa lideri aşkar ermənipərəst mövqe tutduğundan, Prezident İlham Əliyev İspaniyaya getməkdən imtina etmişdi.

Onu da bildirək ki, Ermənistan hakimiyyəti, Fransa və bütövlükdə, dünya ermənipərəstləri Qranada gündəliyini ictimai rəyə sırımağa cəhd göstərmişdilər.



Onlar sözügedən qərəzli sənədi, Azərbaycanla Ermənistan arasındakı münasibətlərdə “yol xəritəsi” kimi təqdim etmişdilər. Təbii ki, təqdimat heç bir önəm daşımamış, Qranada gündəliyi mənasız kağız parçasına çevrilmişdi.

Bəli, Makronun bir neçə gün öncəki sərsəm və hiddətli açıqlamasından sonra Paşinyanın nə üçün Londonda ölkəmizin lideri ilə görüşdən imtina etdiyi aydınlaşır. Çünki Nikol bütün hərəkətlərini “böyük bacısı” Makronla razılaşdırır, müstəqil addım atmır. Belə bir durumda sual yaranır: Şolts Avropanın Cənubi Qafqazda sülh gündəmi üçün cəhdlərini necə faydalı saya bilər? Axı qitə, bir növ, Fransanın diktəsi ilə oturub-durur.

Əslində, suallar çoxdur. Məsələn, Makron “Azərbaycan 2020-ci ildə dəhşətli müharibəyə başladı” deməklə, ölkəmizin işğalçı obrazını formalaşdırır. Almaniya bunun qarşılığında hansı addımı atır? Yəni Şolts gərək qətiyyətli davransın. Əslində, Fransa prezidentinə “Azərbaycan öz suveren ərazilərini geri qaytarıb” replikasını səsləndirən Almaniya və Avropanın digər ölkələri olmalıdırlar, hansısa sıravi şəxs yox. Əsl səmimiyyət budur. Ancaq biz Avropanın aparıcı ölkələrinin timsalında bu səmimiyyəti görürükmü? Təəssüf ki, yox. Əvəzində, Fransanın nəinki Avropanın, ümumən dünyanın sivil dəyərlərinə, beynəlxalq hüquqa həqarətli yanaşmasının şahidiyik. Bir Avropa lideri, o cümlədən, Şolts bildirirmi ki, Makron, yumşaq desək, ədalətsizdir, qərəzlidir? Yox!

Makron Fransanın Ermənistana silah verməsinə bəraət qazandırırsa və bu addımı ölkəsinin müttəfiqlərinin və tərəfdaşlarının özlərini müdafiə etməsinə dəstəyi baxımından əsaslandırırsa, Şoltsun duruma müdaxiləsi mütləqdir. Təkcə ona görə yox ki, Makron Şoltsun haqqında söz açdığı Avropa təşəbbüsünü heçə endirir, həm də dünyanın maraqlı olduğu Cənubi Qafqazda qorxunc geosiyasi savaşın fitilini çəkmək istəyir.

Bəli, Şolts başda olmaqla, Almaniya dövləti bilməlidir ki, Fransa Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsi dünən Zvartnots hava limanına eniş edib. Belə olan halda cənab Kansler 2024-cü ildən necə sülh gözlədiyini əsaslandırmalıdır. Durum nəinki Almaniyanı və Avropanı, bütövlükdə, kollektiv Qərbi, elə Birləşmiş Ştatların özünü də ciddi şəkildə düşündürməlidir. Düşündürürmü və ya düşündürəcəkmi, bunu zaman göstərəcək. Hələlik görünən Zvartnotsa hərbi təyyarənin enməsidir. Belə qənaətə gəlirik ki, Fransa anti-sülh ritorikasını əməli iş müstəvisinə gətirməkdə israrlıdır. Məhz buna görə də Şoltsun Makrondan xəbəri olmalıdır. Xəbəri varmı?..

**Ə.CAHANGİROĞLU**
**XQ**

Replika

# “Ağ qarğa”larla qara oyun

**Qarabağdan könüllü şəkildə Ermənistana köçən ermənilər orada özlərini narahat hiss edirlər. Ermənistandan gələn maraqlı xəbərlərin içində bu məlumat diqqətimizi çəkdi. Belə məlum olur ki, rəsmi İrəvanın ev-eşik, iş-güc, hər cür təminat vəd etdiyi Qarabağ erməniləri ilə orada “ikinci sort” vətəndaşlar kimi davranırlar. Hayastanda “gəlmələr”in hüquqları addımbaşı pozulurmuş. Misal üçün, müxtəlif səbəblərə görə həbs olunan Qarabağ ermənisi azadlığa çıxdıqdan sonra istirahət və xidmət obyektlərinə buraxılmır, onun böyük mağazalara baş çəkməsi qadağandır. Onun keçmiş işçiləri və eyni cinayət işində iştirak edən şəxslərlə ünsiyyəti də qadağan edilib.**

David Sarkisyan adlı separatçının başına gətirilənlər isə bir çox baxımdan daha maraqlı hekayətdir. Buradaca oxuculara xatırladaq ki, Sarkisyan Qarabağ separatçılarının “seçkilər” adlandırdığı şounun nəticəsində Xankəndinin “meri” olub. Şounun nümayişi 2019-cu il sentyabrın 8-də baş tutub. Dünyanın heç bir ölkəsinin legitimliyini tanımadığı həmin “seçkilər”ə görə Sarkisyan Ermənistanda heç kimdir. Amma, mer “postunda” olarkən Azərbaycanın Xankəndini “blokadaya alması” barədə feyk-xəbərləri aktiv şəkildə yayanlardan biri olub. Daim ərzaq, dərman, benzin çatışmazlığından şikayətlənən bu hay Qarabağdakı separatçı xuntaya dünya ictimaiyyətinin şəfqətini cəlb etməklə məşğul imiş.

İntəhası, yalanın və oğurluğun ömrünün 40 gün olduğunu unudan sarkisyanların iç üzü tezliklə açıldı. Keçən ilin sentyabrında Qarabağda keçirilən antiterror tədbirindən sonra oradakı ərzaq anbarlarının ağzına qədər ərzaqla dolu olduğu üzə çıxdı. Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni məskunlaşdığı təsdiqlənən Sarkisyanın əsas missiyası yerli erməniləri daim qorxu altında saxlamaq imiş.

Yeri gəlmişkən, Xankəndidəki xunta rejiminin sonuncu lideri Samvel Şahramanyan da Ermənistanda yaxşı günlərini yaşamır. Onu da gözümçıxdıya salıblar. Erməni mediası və bloqerlərinin yazdığına görə, onun İrəvandakı çoxlu daşınmaz əmlakı və mülkləri əlindən alınıb.

Bu da koçaryanların, sarkisyanların, vardanyanların Qarabağ ermənilərinin hesabına əldə etdikləri haram pulların aqibəti. İndi Ermənistan məhkəməsinin, reallıqda olduğu kimi, cinayətkar adlandırdığı D.Sarkisyan da onların qazdıqları quyunun divarlarını cırmaqlamaqdadır. Bu isə o deməkdir ki, Ermənistanda Qarabağ xuntasının keçmiş üzvləri üçün hər



şey heç də hamar və rahat deyil. Vaxtaşırı bəyanatlar verən “separatçıbaşı” S.Şahramanyanın da başı üzərinə qara buludlar alıb. Öz hayları tərəfindən acınacaqlı vəziyyətə salınmış, “ağ qarğa”lara döndərilmiş sarkisyanlar indi layiq olduqları həyatı yaşayırlar. Onların Xankəndidə “hakimiyyətdə” olarkən, Qarabağ ermənilərinin başında hansı “qozları” sındırdıqlarını təsəvvür etmək belə çətindir.

İrəvanın kənardakı “züytutanları” isə Bakıdan əlləri qandallanmış Qarabağ xuntasının liderlərini azad etməyi tələb edir, hətta “Qarabağ ermənilərinin pozulmuş hüquqlarının” bərpası barədə danışmağa cürət edirlər. Ermənistanın maskalı təəssübkeşlərinin cavabını Bakı deyil, statistika verir.

İyunun 1-nə olan məlumata görə, Qarabağı könüllü tərk edən və Ermənistanda məskunlaşan 17 743 erməni hava və quru yolu ilə ölkəni tərk edib. Onlardan cəmi 7 435 nəfəri geri qayıdıb. Deməli, “ana vətənləri”ndə “ağ qarğa”ya çevrilmiş Qarabağ erməniləri Ermənistanda özlərini yiyəsiz və narahat hiss etdiklərinə görə geri qayıtmaq istəmirlər. Təbii ki, rəsmi İrəvan bu barədə susur. Bu faktın özü də onun ikiüzlülüyünə dəlalət edir.

**İ.HƏSƏNQALA**
**XQ**

# Heydər Əliyev – jurnalistlərin dostu və hamisi

(əvvəli 1-ci səhifədə)

Ustadları Həsən bəy Zardabinin yolunu davam etdirən dövrün digər ziyalıları və maarifpərvər insanlar ilk milli mətbu orqan "Əkinçi"dən sonra "Ziya", "Ziyayi Qafqaziyyə", "Kəşkül", "Kaspi", "Həyat" "İrşad", "Şərqi-Rus", "Molla Nəsrəddin", "Füyuzat" və digər mətbuat orqanlarının yaranmasına nail oldular. Beləliklə, Azərbaycanda milli mətbuatın, jurnalistikanın ənənələri yaranmağa, formalaşmağa və inkişaf etməyə başladı.

Doğrudur, dünya jurnalistikası ilə müqayisədə Azərbaycan jurnalistikası tarixilik baxımından elə uzaq keçmişə malik olmasa da, əsryarımlıq bir dövrdə çox zəngin, ancaq son dərəcə ziddiyyətli mərhələlərdən keçib gəlmişdir. Amma buna baxmayaraq, sözün həqiqi mənasında, milli jurnalistika fenomeni xalqımızın mənəvi dəyərlərini və etnik özünüdərkini formalaşdıran bir institut kimi öz fəaliyyət tarixini qiymətli bir irsə çevirmişdir. Ümummilli lideri Heydər Əliyev məhz bunu nəzərə alaraq deyirdi: **"Azərbaycan mətbuatı tarix boyu daim mütərəqqi ictimai idealların carçısı kimi çıxış etmiş, xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermiş, onun müstəqillik amalının güclənməsində, mənəvi dəyərlərinin tərəqqisində, milli şüurun, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır".**

Xalqımızın uzun əsrlik tarixinin XIX – XX əsrlərində milli jurnalistika ciddi manеələrlə, qadağalarla üzləşsə də, müstəqillik və azadlıq ideyalarının milli təfəkkürə nüfuz etməsində qədər böyük rol oynamışdır. Xüsusilə tarixin dönüş mərhələləri jurnalistika, mətbuat üçün həmişə yüksək artım fəallıq dövrləri olub. Cəmiyyətdə baş verən hər hansı mühüm hadisələr: iğtişaşlar, müharibələr, inqilablar və digər tarixi faktlar mətbuatda fəallığın "parlaq alovlanmasına" səbəb olub. Azərbaycan tarixində XX əsr ərzində bu cür "alovlanmalar" ən azı üç dəfə müşahidə olunub. Birinci dövr 1917-1918-ci illərdə Rusiya imperiyasının dağılması, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ikinci AXC-nin iflası və Azərbaycanın SSRİ-nin tərkibinə daxil olması, üçüncü SSRİ-nin dağılması və müstəqil Azərbaycan dövlətinin yaranması.

Etiraf etmək lazımdır ki, SSRİ dönəmində Azərbaycan jurnalistikası peşəkarlıq baxımından ciddi bir formalaşma dövrünü yaşadı. Həmin illərdə SSRİ-də 8622 qəzet nəşr olunurdu ki, onun illik tirajı 50 milyard nüsxəyə bərabər idi. Onların sırasında Azərbaycanda doğma dilimizdə nəşr edilən "Kommunist" (indiki "Xalq qəzeti"), "Azərbaycan gəncləri, "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət", "Sovet kəndi", "Bakı" və sair qəzetlər də var idi. Əlbəttə, bu mətbuat sovet ideologiyasının təbliğatı ilə məşğul idi, amma milli dəyərlərin qorunmasına, dilimizin, incəsənətimizin və mədəniyyətimizin inkişafına da böyük töhfələr verirdilər. Xüsusilə 1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsindən sonra bütün digər sahələr kimi milli mətbuatın inkişafında və milli jurnalist kadrlarının yetişməsində də çox mühüm tədbirlər həyata keçirildi. Məhz ümummilli liderin qətiyyəti sayəsində 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitutsiyası qəbul edilərkən orada Azərbaycan dilinin dövlət dili kimi öz yerini tapması milli mətbuatımızda ədəbi dilin, anadilli mətbuatın inkişafına və milli jurnalist kadrlarının hazırlanmasına xüsusi diqqət ayrıldı.

**1969**-cu il iyulun 14-də Ulu öndər Azərbaycan KP MK-nın birinci seçiləndən bir neçə ay sonra o dövrkü milli mətbuatımızın flaqmanı olan "Kommunist" (indiki "Xalq qəzeti") qəzetinin Milli Dram Teatrının binasında 50 illik yubileyi keçirildi. Azərbaycanın yeni rəhbəri Heydər Əliyev həmin mərasimdə ana dilimizdə ilk dəfə geniş nitq söylədi. Bu, o dövr üçün görünməmiş bir hadisə idi. Çünki o qəbildən olan mərasimlərdə çıxışlar yalnız rus dilində aparılırdı.

Müstəqillik illərində həmin dövrün milli mətbuatına olan ədalətsiz hücumlara cavab verirmiş kimi ulu öndər Heydər Əliyev deyirdi: ***"Yada salaq, keçmiş ittifaqın informasiya məkanı necə idi? Bu, məkan əzəl başdan cəmiyyətin komanda siqnal sistemi kimi formalaşmışdı. Qəzet və efir partiya və hökumətin fərmanlarını, direktivlərini auditoriyaya çatdırır, növbəti təbliğat-təşviqat müddəalarını adamların şüuruna yeridir, "sosializm yarışı"nın gedişinə nəzarət edir, "xalq düşmənləri"ni gözdən qoymur və şəxsiyyətə pərəstişin xronikasını yaradırdılar. Lakin ideoloji senzoranın aradan qaldıra bilmədikləri başqa hal da vardı: sıravi insana, vətəndaşa, onun ehtiyac və qayğılarına diqqət yetirilməsi".*** Fikrimcə, sovet mətbuatının belə dəqiq və aydın təhlilini onu bütün incəliklərinə qədər bilən bir insan verə bilərdi — Heydər Əliyev. Bütün fəaliyyəti boyu olduğu kimi, qərəzsiz və ədalətli yanaşma.



XX əsrin 80-ci illərinin ikinci yarısında SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçovun ortaya atdığı yenidənqurma qırmızı imperiyada milli münasibətlərin sürətlə kəskinləşməsinə, milli azadlıq hərəkatlarının açıq müstəviyə keçməsinə və müstəqillik ideyalarının bəyan edilməsinə meydan verdi. Məhz həmin illərdə müttəfiq respublikalarının əksəriyyətində olduğu kimi Azərbaycanın mətbuat tarixində də yeni intibah dalğası baş qaldırdı. Uzun illər sərt siyasi senzuranın məngənəsində saxlanılan sovet jurnalistikasının həyatı aşkarlığın gəlişi ilə dəyişməyə başladı. İctimai şüurun emansipasiyası baş verdi, tarixə maraq yenidən canlandı. Xüsusən də partiya ideologiyasından qurtulma ilə əlaqədar tarixin sovet dövrünün yenidən nəzərdən keçirilməsnə başlandı. Mətbuatda, televiziyada əvvəllər qadağan olunmuş, lakin o dövrdə çox aktual olan mövzular qaldırıldı. Jurnalistlər yenidən "xalqın səsinə" səs verir, reallığı dərk etmək üçün vacib şəxsə çevrilməyə başlayırdılar. Yeni, daha radikal yönlü mətbu nəşrlər üzə çıxırdı. Dissident sayılan yerli və xarici müəlliflərin əvvəllər qadağan olunmuş əsərləri əvvəlcə qəzetlərdə, sonra isə kitab halında nəşr olunurdu.

Etiraf etmək lazımdır ki, söz azadlığı və aşkarlıq SSRİ-nin dağılmaq ərəfəsində olduğu 1990-cı ildə qəbul edilmiş, KİV-in müstəqilliyi haqqında Qanunla üzvi şəkildə bağlı idi. Qətiyyətlə demək olar ki, məhz bundan sonra media əsas müxalifət qüvvəsini təmsil edən və sovet sosialist sisteminin əsaslarını dağıtmağa başlayan ən mühüm alətə çevrildi.

Yenidənqurma mərhələsində medianın müstəqil olması üçün mahiyyətcə unikal şərtləri var idi: senzuranın yoxluğu, bütün zəruri maddi-texniki resursların olması, dövlətin maliyyə dəstəyi. Bir çox respublikalardan fərqli olaraq Azərbaycanda senzura öz "səlahiyyətlərini" qoruyub saxlayır və o zamankı hakimiyyətin sifarişlərini cidd-cəhdlə yerinə yetirməyə çalışırdı. Artıq həmin illərdə ölkədə yeni və daha müstəqil qəzet və jurnallar işıq üzü görməyə başladı. Bu mətbuat orqanları ölkədə baş verən siyasi proseslərə müstəqil yanaşması ilə ciddi şəkildə fərqlənirdilər. Beləliklə, söz azadlığı, aşkarlıq, dövri mətbuatın, radionun, televiziyanın sürətli müstəqil inkişafına, onlar da öz növbəsində Azərbaycan cəmiyyətinin demokratik yeniləşməsinin aparıcı və təsirli amilinə çevrildilər.

Sovet hökuməti öz xalqına güvənməyi dayandırdı – xalq da ona eyni şəkildə cavab verdi. Sovet hökuməti əsas problemlərə – ictimai mülkiyyətə və ictimai hakimiyyətə münasibətdə xalqın inamını itirərək məğlub oldu və tarix səhnəsini tərk etdi. Bundan sonra artıq Azərbaycan özünün müstəqilliyi uğrunda çarpışmağa qalxdı və bu mübarizədə milli mətbuat, sözün əsl mənasında, ən fədakar qüvvə kimi proseslərin önündə addımlamağa başladı. Həmin illərdə "Azərbaycan", "Meydan", "Azadlıq", "Ayna" ("Zerkalo"), "Aydınlıq", "Səhər", "Həyat" və digər mətbuat orqanlarında dərc olunmuş siyasi-publisistik yazılar, ölkənin müstəqillik yolundan narahatlıq hissi və vətəndaşlıq mövqeyi onları millətin obyektiv informasiya mənbəyinə çevirdi.

Millətimiz və xalqımız üçün ən böyük tarixi hadisələrdən biri 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etməsi oldu. Bu, təkcə müstəqil dövlətçiliyimizin və suverenliyimizin bərpası ilə yanaşı, həm də azad və demokratik Azərbaycan mətbuatının formalaşması üçün geniş bir yolun açılması demək idi. Amma söz azadlığının başında Damokl qılıncı kimi asılan senzura bu işdə əngəl olaraq qalmaqda idi...

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə yeni qayıdışı ilə Azərbaycan mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu qayıdış ölkə üçün çox ağır bir dövrə təsadüf etsə də, müstəqil dövlətçiliyin möhkəm təməllər üzərində qurulmasında müstəsna rol oynadı. Media bu işdə ulu öndərin irəli sürdüyü həmrəylik cəmiyyətdə dövlətçiliyin müdafiəsi naminə yaratmaq missiyasını da üzərinə götürdü. Amma milli mətbuatın söz azadlığı və demokratik prinsiplər əsasında inkişafı siyasəti strateji xətt kimi daha qətiyyətlə inkişaf etdirilməyə başlandı. Əlbəttə, bu strateji xəttin təməlini də bir zamanlar qırmızı imperiyanın hakimi-mütləq olduğu illərdə belə "Qoy ədalət zəfər çalsın!" mühibəsi ilə Kremli silkələyən Heydər Əliyev oldu.

Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dönəmlərdə mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirirdi. Müstəqillik illərində milli mətbuatın tarixi rolunu yüksək dəyərləndirərək deyirdi: ***"Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir".***

Elə bu səbəbdən də Ulu öndər milli medianın yeni dövrün tələbləri səviyyəsində fəaliyyətini təmin etmək üçün mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirirdi. Müstəqillik dövründə də Azərbaycan mətbuatı ilə bağlı ilk fərmanı məhz Heydər Əliyev imzalamışdı.

Azərbaycan müstəqillik qazandıqdan sonrakı illərdə ölkədə sosial-iqtisadi durum son dərəcə çətin idi və azad mətbuat maliyyə dayaqları olmadan yaşamaq iqtidarında deyildi. Mətbuatın, xüsusilə gündəlik və həftəlik qəzetlərin maliyyələşdirilməsi problemi artıq 1990 – 2000-ci illərdə ciddi şəkildə gündəmə gəlməyə başlayırdı. Qəzetlər dövlətdən, partiyadan maliyyələşdirilməyə öyrəşmişdilər, amma heç kim bazara hazır deyildi: reklam yox, pul almağa yer yox, hökumət isə həmtəsisçilikdən geri çəkilir və qəzetləri maliyyələşdirməyi dayandırırdı. Buna görə də üzdə qalmaq, qəzet nəşr etmək çox çətin idi. Üstəlik, oxucuların əksəriyyəti abunə olduqları üçün köşklərdən qəzet almağa öyrəşməmişdilər. Təbii ki, hakimiyyət tərəfindən maliyyə dəstəyi alan ixtisaslaşmış nəşrlər var idi. Amma müstəqil media maliyyə burulğanında çapalamağa başlamışdı.

Məhz həmin illərdə ulu öndər mətbuatın problemlərinin həlli ilə bağlı 10-dan çox sərəncam və fərman imzaladı. 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" beynəlxalq tələblərə cavab verən qanun qəbul edildi və Azərbaycanda mətbuat orqanlarının dövlət qeydiyyatı ləğv olundu, mətbuat orqanlarının təsis olunması prosedru xeyli asanlaşdırıldı.Buna qədər isə məhz ümummilli lider Heydər Əliyev 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında"sərəncamı ilə Azərbaycanda senzuranı ləğv etdi və söz azadlığını, mətbuatın demokratik əsaslarla inkişafına misilsiz töhfə verdi.

Bu tədbirlərin davamı olaraq 2000-ci ilin martında "2000-2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqramı" təsdiq edildi. 2002-ci ilin mayın 11-də ulu öndərin imzaladığı "Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi haqqında" fərman KİV və milli mətbuatın inkişaf etdirilməsi və dünyəvi dəyərlərə yenidən qurulması istiqamətində ən əhəmiyyətli tarixi sənədlərdən biri hesab edilməlidir.

Jurnalistlərə, media nümayəndələrinə son dərəcə böyük dəyər verən, sözün qiymətini, mətbuatın dövlətçilikdə yerini və rolunu yüksək dəyərləndirən Heydər Əliyev 2000-ci ilin ortalarında Rusiyanın "Jurnalist" jurnalının baş redaktoruna verdiyi müsahibədə deyirdi: **"Demokratik mətbuat nə deməkdir? Çox ümumiləşdirilmiş şəkildə desək, bu, rəsmi və sırf fərdi nöqteyi-nəzərlərin ifadəsi üçün hüquqların bərabərliyinə nail olmaqdır, hakimiyyətin müxtəlif qollarının (o cümlədən də "dördüncü" qolunun, yəni mətbuatın özünün) fəaliyyəti haqqında operativ xəbərlər axınıdır. Nəhayət, mətbuat dövlətlə cəmiyyəti birləşdirən canlı əlaqə vasitəsidir, fasiləsiz ikitərəfli əlaqə kanalıdır. Yalnız bu şərtlər təminat yaradır ki, hökumət xalqın iradəsinə uyğun olaraq hərəkət edəcəkdir".**

Demokratik quruculuq prosesində medianın əhəmiyyətini və rolunu bu şəkildə qiymətləndirdiyi üçün Heydər Əliyev azad mətbuatın inkişafına dəstəyini əsirgəmirdi. 2001-ci il dekabrın 27-də "Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalayan dövlət başçısı KİV-in maddi-texniki və maliyyə bazasının gücləndirilmək, söz, fikir və mətbuat azadlığının imkanlarını genişləndirmək üçün 5 maddədən ibarət fəaliyyət proqramı müəyyən etdi. Burada müvafiq nazirliklər və Respublika Baş Prokurorluğu qarşısında duran vəzifələr, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, qəzetlərin "Azərbaycan" nəşriyyatına 2001-ci il üçün mövcud borclarının ödənilməsinin bir il uzadılması və bir çox digər göstərişlər əksini tapdı.

2002-ci ilin martında ulu öndər Heydər Əliyev "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi "2001-ci ildə "Jurnalistlərin dostu" adı ilə mükafatlandırıldı. Heydər Əliyev həyatı boyu çox yüksək mükafatlara, ali orden və medallara layiq görülmüşdü, ancaq "Jurnalistləri dostu" mükafatı onun üçün çox dəyərli idi. Onun özü bu mükafatı belə qiymətləndirdi: "Sizi əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də jurnalistlərin dostuyam və həmişə jurnalistlərin dostu olacağam".

Heydər Əliyev həqiqətən sonrakı sərəncamlarında və addımlarında göstərdi ki, bu sözləri təsadüfən deməyib. Məhz bu mükafatlandırmadan bir il sonra 2003-cü ilin mart ayında media-hakimiyyət münasibətlərini tənzimləyən qurum –Azərbaycan Mətbuat Şurası yaradıldı. Bütün bunlar ümummili lider Heydər Əliyevin arzusunda olduğu azad, sərbəst və demokratik ölkənin azad və demokratik milli mətbuatının formalaşmasında, ümumiyyətlə, müstəqil mətbuat tariximizdə əlamətdar hadisələr idi.

Bütün bunlarla yanaşı, Ümummmilli lider mətbuat və milli jurnalistika qarşısında duran vəzifələri də özünəməxsus şəkildə media nümayəndələrinə çatdırır və onlara qiymətli tövsiyələrini verirdi. 2002-ci il mayın 11-də tədbirlərin birində çıxış edərkən ulu öndər deyirdi: "Çağdaş zəmanəmizdə milli mətbuatımızın üzərinə daha böyük vəzifələr düşür və biz əminik ki, bütün müsbət və mənfi tərəflərinə baxmayaraq, mətbuatımız getdikcə daha da inkişaf edəcəkdir. Mətbuat cəmiyyətin güzgüsüdür və elə buna görə də, bu sahədə çalışan qələm sahibləri bütün fəaliyyətləri boyu həqiqəti, doğruçuluğu, düzgünlüyü və obyektivliyi başlıca meyar kimi qəbul etməli və buna əməl etməlidirlər. Belə olarsa ölkəmizdə həqiqətən də əsil azad, müstəqil mətbuat formalaşar və bundan bütün xalqımız, ölkəmiz faydalanar". Bununla böyük dahi KİV-in nə qədər böyük gücə malik olduğunu, jurnalistikamızın, mətbuat işçilərinin peşə doktrinalarına ciddi və məsuliyyətli şəkildə əməl etmələrini xatırladırdı.

Ümummili liderin bütün digər sahələrdə olduğu kimi, mətbuata diqqət və qayğısı da onun siyasi varisi, XXI əsrin lider siyasətçisi, Prezident İlham Əliyev idarəçilik strategiyasının prioritet sahələrindən birinə çevrildi. Dövlət başçısı fəaliyyətə başladığı ilk gündən mətbuata daim açıqdır və KİV-in inkişafına xüsusi qayğı ilə yanaşır. Bunun nəticəsidir ki, 2005-ci ildə "Əməkdar jurnalist" adı bərpa olundu və birbaşa Prezidentin sərəncamı ilə bir qrup jurnalist bu fəxri ada layiq görüldü.

Prezident İlham Əliyev mətbuatın, bütövlükdə KİV-in əsas problemlərinin maliyyə təminatının olmadığından irəli gəldiyini bilirdi və ona görə də ilk addımlarından biri qəzetlərin "Azərbaycan" nəşriyyatına borclarının silinməsi barədə sərəncamı imzaladı. Lakin bununla problemlərin həll olunmayacağı da bəlli idi və bu səbəbdən dövlət başçısının tapşırığı ilə müstəqil mətbuatın inkişafının əsas istiqamətlərini müəyyənləşdirən Dövlət Konsepsiyası işlənib hazırlandı. Prezidentin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə bu sənəd təsdiq edildi. 2009-cu il aprelin 3-də isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. 2010-2018-ci illərdə dövlət büdcəsindən KİVDF-yə 32,4 milyon manat vəsait ayrıldı. Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan jurnalistlər üçün mənzillərin tikintisinə 67 milyon manat vəsait ayrıldı.

Dövlətin mətbuat və KİV-ə dəstəyi, şübhəsiz ki, bununla bitmir. Məqsəd mətbuatın müstəqil inkişafı, azad sözün siyasətdən, digər öhdəliklərdən xilas olması və vətəndaşların həqiqəti bilmək hüququnun təmin olunmasıdır. Milli mətbuat məhz bunu istiqamət götürməlidir – tərəfsiz və qərəzsiz olmalıdır.

**Bu**gün Azərbaycanda KİV-in azadlığı məsələsi artıq çoxdan ölkənin aktual problemləri cərgəsindən kənarda qalıb. Çünki sivil dünyanın ən danılmaz, ən dəyərli və vacib insan hüquqlarından olan söz və mətbuat azadlığının təmin olunması üçün ulu öndər Heydər Əliyevin dövründə, ondan sonra isə Prezident İlham Əliyev tərəfindən dövlət səviyyəsində qəbul olunmuş qanunlar, imzalanmış fərman və sərəncamlar bu istiqamətdə zəruri hüquqi baza yaratmışdır. Müstəqil Azərbaycanda demokratiyanın və vətəndaş cəmiyyətinin vacib göstəricilərindən olan söz və azadlıqlara indi heç bir siyasi dəyişiklik ciddi təsir etmək iqtidarında deyil.

**Məhərrəm SƏFƏRLİ,**
**Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü**

# Ümummilli tribunanın şərəfi və məsuliyyəti

**22 İyul Milli Mətbuat Günü hər il olduğu kimi, milli jurnalistikamızın ərsəyə gəlməsinin 149-cu ildönümündə də ölkənin hər yerində ümumxalq sevgi-sayğısı və qədirbilənliyi ilə qeyd edilir.**



Xəbər verdiyimiz kimi, Medianın İnkişafı Agentliyi, Audiovizual və Mətbuat şuralaralarının paytaxtda keçirdiyi təntənəli mərasimdə əsryarım əvvəl böyük maarifçi ziyalı və xalq xadimi Həsən bəy Zərdabinin yurdsevərlik səyləri ilə ölkəmizdə milli mətbuatın yaranması sivil inkişaf tariximizin önəmli hadisəsi kimi dəyərləndirildi. Toplantıda milli oyanış və istiqlal mübarizəmizin ümumxalq tribunası olmuş milli mətbuatımızın 1 əsrdə 2 dəfə dövlət müstəqilliyimizin bərpa edilməsində misilsiz rolu öyünclə yad edildi.

Çıxışlarda və həmkarlarımızın masaətrafı söhbətlərində müstəqillik dövründə azad, demokratik jurnalistikamızın tarixi yüksəliş prosesinə, Ermənistanın işğalçılıq siyasətinin dəf edilməsinə, ərazi bütövlüyümüzün bərpa edilməsinə verdiyi davamlı informasiya dəstəyi, dördüncü hakimiyyət missiyasının bundan sonra da çevik və peşəkarcasına gerçəkləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələr diqqət mərkəzində oldu. Ölkəmizin media qurumlarının təmsilçilərindən "Xalq qəzeti" və "Xalq TV" üçün aldığımız ayaqüstü müsahibələri təqdim edirik:

**Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin dekanı, Əməkdar jurnalist Vüqar Ziferoğlu:**



– Bu gün milli jurnalistikamızın qarşılayıb yola saldığımız 149-cu ildönümü çox şərəfli, tarixi bir yoldur. Həsən bəy Zərdabi yalnız "Əkinçi" qəzetini yaratmadı. O, həm də elə bir məşəl yandırdı ki, biz onun bu gün işığına toplaşmışıq. Milli mətbuatımız XIX əsrin sonu, XX əsrin əvvəllərində elə bir yol qət etdi ki, Azərbaycan Cümhuriyyətinin yaradılması ideyalarını ortaya qoydu.

Ədəbiyyatşünaslarımız, publisistlərimiz, cümhuriyyəti yaradan qurucu babalarımız məhz o mətbuatdan boy göstərdilər, milli idealımızın şinelindən çıxdılar. Dövlətçiliyimizin təməl prinsipləri də məhz milli mətbuatımızın ilk nəşri "Əkinçi"nin səhifələrində qoyuldu. Sovet dönəmində belə jurnalistikamız milli inkişaf və ümumi tərəqqiyə xidmət etdi – "Əkinçi" nin ideyaları, qarşısına qoyduğu vəzifələr davamlı olaraq gerçəkləşdirildi.

Böyük ədiblərimizin, böyük kişilərin qoyduğu yoldan əsla dönmədik. Milli mənliyimiz, milli məfkurəmiz o insanların yazdıqları hər bir sətirdə qətrə-qətrə xalqımızın iliyinə, qanına işlədi. Nəhəng əsərlər bu ideyalardan yoğruldu. Baxın, bizim günlərdə Vətən savaşında qəhrəmanlıq göstərən övladlarımız o əqidədən, məsləkdən tərbiyə aldılar. Birinci və İkinci Qarabağ müharibəsində işğalçı düşmənlərimizin qarşısına çıxaraq şərlə döyüşən oğullar həmin şanlı tariximizi – "Əkinçi"ni ərsəyə gətirən, bütün varlığı ilə yurda sahib çıxan ziyalıların cəngavər nəvə-nəticələridirlər.

Vətən müharibəsində Azərbaycan mediası da sona qədər döyüşdü və Zəfərimizə söz dəstəyi verdi. Azərbaycan jurnalistikası döyüşkənliyini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi günlərindəki çıxışları, çoxsaylı müsahibə və açıqlamaları tələbə jurnalistlərimiz üçün dərs vəsaitidir. Ötən il mayın 10-da cənab Prezident Şuşadan çıxış edərkən dedi ki, Zəfərimiz çiyinlərimiz üzərinə böyük bir məsuliyyət qoyub. Biz bu zəfərimizə layiq olmalıyıq.

Böyük Həsən bəyin istəyi sivil və yurdsevər xalqın, ölkəsinə sahib çıxan insanların mətbuatını yaratmaq idi. Bu gün biz hamılıqla müstəqil dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin məzarını və milli mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabinin qəbrini ziyarət etdik, onlara sonsuz ehtiramımızı, vəsiyyətlərinə sədaqətimizi sərgilədik. Bu böyük millət fədailərinin ruhu hər zaman başımız üzərindədir və bizi yeni uğurlara yönəldir.

**"Yeni Müsavat" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Rauf Arifoğlu:**



– 149 rəqəminin özü bir qürur mənbəyidir. Bu, Azərbaycan mediası nın qaynağının haralara gedib çıxmasının, möhtəşəm tarixə bağlılığının göstəricisidir. Bu, müstəmləkə şəraitində xalqımızın milli varlığını yaşatmasının, özünütəsdiq mübarizəsinin uğurudur. İkincisi, Azərbaycan ziyalılarının əsryarım əvvəl cəhalətə və ümumi geriliyə qarşı aydınlatma cəhdlərinin baş tutmasıdır. Biz Həsən bəy, Mirzə Cəlil, Üzeyir bəy kimi xalq və dövlət mətbuatı yaratmış kişilərin çörəyini yeyirik. Sözün obrazlı mənasında onların yolunu davam etdiririk. Onlar Azərbaycanımız üçün məfkurə, milli ideal əkdilər, ictimai söz səpdilər.

Biz zəngin və şərəfli bir bağın məhsullarıyıq. Biz bu gün söz əkmə peşəsini qürurla yerinə yetiririk. Bugünkü jurnalistikamız dünyanın ən müasir texnologiyalı mediası ilə klassik mətbuatın vəhdətini təşkil edir. Biz keçmiş ənənələrimizə sadiq qalaraq, media dünyamızı zənginləşdiririk. Azərbaycan mediası Qafqazın öndə gedən demokratik, söz azadlığına yiyələnmiş ictimai-siyasi və mədəni-məfkurəvi fəaliyyət sferasıdır.

Ölməz Həsən bəy Zərdabi xoşbəxtdir ki, onun qoyduğu yolla – xalqı tərəqqiyə yönəltmək istiqamətində gedirik. Milli mətbuatımızı yaradıb yaşadanlar bugün ruhən bizimlədir. Bu, hər bir söz adamının xoşbəxtlik yaşantısıdır. Azərbaycan jurnalistlərini milli mətbuatımızın doğuluş günü, peşə bayramına çevrilmiş tarix münasibətilə təbrik edirəm. Bu təntənə təkcə bizim yox, həm də oxucularımızın bayramıdır. Deməli, bütün xalqın bayramıdır. 22 iyul sözün, qələmin bayramıdır!

**Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti, Əməkdar jurnalist Eldar İsmayılov:**



– Bu günlər bizim ikiqat bayramımızdır. İdman jurnalistləri Azərbaycan övladlarının Olimpiadada qazanacağı uğurları səbrsizliklə gözləyirlər. Biz sizin "Xalq qəzeti" ilə yaxından əməkdaşlıq edirik. Qəzetinizin səhifələrində idmanla bağlı yüksək səviyyədə yazılar hazırlanır, qələbə soraqlı informasiyalar oxucuların diqqətinə çatdırılır. Bu özü də bir uğurdur. Mətbuat səhifələrində bədən tərbiyəsi və idmanın təbliğ olunması xalqın səviyyəsinin, inkişafının göstəricisidir.

Bu gün Azərbaycanın idman jurnalistləri Avropa media məkanında uğurla çıxış edirlər. Mən deyərdim ki, bu da "Əkinçi" nin bizə miras qalan mədəni dünya ilə əlaqələr qurmaq və bu siyasəti həyata keçirmək missiyasıdır.

**"Cümhuriyyət" qəzetinin baş redaktoru Rəfael Becanov:**



– Azərbaycan mətbuatı çox böyük bir inkişaf yolu keçərək sivil, modern mediaya çevrilib. Ona görə də bu gün biz mətbuatımızın tarixindən qürurla danışırıq və öyünürük. Azad, müstəqil medianın nümayəndəsi kimi ölkədə yaradılan demokratik şəraitdən çox razıyam. Çətinliklərlə üzləşsək də, dövlət hər zaman köməyimizə çatıb, borclarımız silinib. Jurnalistlər dövlətin bizə yaratdığı şansdan yararlanaraq xalqa xidmətini davam etdirir.

Azad medianın inkişafı üçün müstəqillik dövründə mükəmməl hüquqi baza yaradılıb. Senzuranın ləğv olunması tarixi nailiyyətdir və istədiyimiz mövzunu işıqlandıra bilirik. Həsən bəy Zərdabinin ruhu bütün bunlardan şaddır. Biz isə onun əkdiyi qocaman ağacın cavan pöhrələriyik. Bu ilin əvvəllərində Prezident İlham Əliyev Azərbaycan jurnalistlərinə verdiyi müsahibədə yeni bir dövrün başlanmasını qeyd etdi. Və bu yeni dövrdə Azərbaycan Media nümayəndələrinin də üzərinə böyük məsuliyyət düşür.

Müstəqil Azərbaycanda söz, qələm sahibi olmaq şərəfli olduğu qədər də məsuliyyətlidir. Bu məsuliyyət özünü vətəninə və xalqına borclu bilmək, həqiqətə sadiq qalmaqdır. Bu bayram günündə bütün həmkarlarımı təbrik edirəm. "Əkinçi"nin 1 əsrlik davamçısı – 105 yaşlı qocaman "Xalq qəzeti"nin kollektivinə yeniləşmə yolunda növbəti yaradıcılıq uğurları arzulayıram.

**Türküstan Media Qrupunun rəhbəri Aqil Camal:**



– Biz Türk dünyasının birliyi və əzəməti naminə mətbuatda öz sözümüzü deyirik. Bu gün bütün dünya Türk dünyasının birliyini görür. Biz bu birliyin, tarixi qovuşmanın önündəyik. Elə buna görə də dövlətimizin apardığı siyasəti öz yazılarımızda ətraflı işıqlandırmaqla ümumtürk birliyinə xidmətimizi həvəslə davam etdiririk. Bizim media qrupumuzun hər bir üzvü Azərbaycan mediasının fədakar nümayəndələridir. Çünki məsləkimiz türkün gücü, əyilməzliyi, dönməzliyi və sədaqəti anlamını bütün dünyaya çatdırmaqdır.

Əlbəttə, qələmimizin gücünə, ölkəmizdə yaradılan söz azadlığına güvənərək qarşımıza qoyduğumuz amala çatmaq uğrunda gördüyümüz işin uğurla nəticələnəcəyinə inanırıq. Turan elləri, Türk dünyası bizim sədaqətli oxucularımızdır. Milli jurnalistika günündə "Xalq qəzeti" nin yaradıcı heyətinə daim "Əkinçi" qəzetinin tarixi davamçısı missiyasını gerçəkləşdirməkdə uğur diləyirik. Milli mediamızın tarixi təcrübəsi və ənənələri qəzetinizdə yaşayaraq bugünümüzə çatıb. Mediamızın böyük Turan naminə mübarizənin də önündə getməsindən qürur duyur, güc alırıq.

**Kəmalə ABDİNOVA**
**Elşən AĞALAR (foto)**
**XQ**

# İctimai söz cəmiyyətin işığı, zamanın salnaməsidir

**Azərbaycan mətbuatının yaranmasından nə az, nə çox düz 149 il keçir. Cəmi bir il qalır yubiley tədbirinə. Lakin biz mətbuat işçilərinə iyulun 22-si hər il bayram əhval-ruhiyyəsi bağışlayır.**

Ali jurnalistika təhsili almış həmkarlarımız daim xatırlayırlar ki, ötən əsrin 60-cı illərindən başlayaraq biz şanlı media ailəsinə daxil olarkən – I kursun ilk günündə böyük Həsən bəy Zərdabinin Fəxri xiyabandakı məzarı başında onun amalına, tutduğu yola sadiq qalacağımıza and içirdik. Bu andın məğzi, hər şeydən öncə, xalqa sözlə xidmət etmək, milli mətbuatın ənənələrinə sadiq olmaq, həqiqəti yazmaqla jurnalistikamızın şərəfini uca tutmaq. Öz qələminin gücünü millətin tərəqqisinə, maariflənməsinə, mədəniyyətinin inkişafına, dilinin saflığının, mənəvi dəyərlərinin qorunmasına sərf etmək üçün hamımız bu anda sadiq qalmağa çalışmışıq. Bu, əslində, bizim çiynimizə Zərdabi yolunun, irsinin qoyduğu çox ağır, şərəfli bir missiyadır.



Ötən dövrə nəzər salsaq görərik ki, Azərbaycan jurnalistləri bir ziyalı kimi Zərdabi ənənələrini şərəflə qoruyub və ona xidmət ediblər. Bu sahədə milli jurnalist kadrlarının hazırlanması üçün keçən əsrin ortalarında Bakı Dövlət Universitetində (keçmiş Azərbaycan Dövlət Universiteti) ayrıca bir fakultənin açılması ümummilli önəmi olan bir addım olub. Məhz bundan sonra jurnalistika ölkəmizdə bir sənət, peşə səviyyəsinə yüksəlib. Bu məktəbin məzunları milli jurnalistikamızın peşəkar təmsilçiləri olublar. Onlar təkcə mətbuatda çalışmaqla kifayətlənmədilər.

Vətənin ən ağır vaxtlarında, milli ideologiyanın formalaşmasına kəskin ehtiyac duyulduğu bir vaxtda isə jurnalistlər xalq hərəkatının önünə keçdilər. Xalqdan gizlədilən həqiqətləri hər cür təzyiqlərə və təhdidlərə baxmayaraq müxtəlif mətbuat orqanları vasitəsi ilə xalqa çatdırdılar. Elə bu xidmətlər imkan verir ki, cəmiyyət öz mətbuatı və jurnalistləri ilə fəxr etsin. Çünki, ötən nəsil jurnalistlər həmişə günün nəbzini tuta bildilər. Zamanın diqtəsini eşidib xalqın maraqlarını ifadə etdilər, qaranlıqlara işıq sala bildilər.

Zərdabinin başladığı o böyük işi biz davam etdirdik. "Əkinçi"dən düz 47 il sonra "Zaqatala kəndçisi" adı ilə nəşrə başlayan bu günkü "Zaqatala" qəzeti də Zərdabi yolunun davamında ərsəyə gəlib, boy atıb.

Biz "Zaqatala"nı 100 yaşa çatdıra bildik. Bu da gözəl, şanlı bir tarixdir. Azərbaycan mətbuatında özünəməxsus yeri və sözü olan qəzetimizin işini hər cür məhrumiyyətlərə baxmayaraq davam etdiririk. Qəzetimizin hər bir nömrəsinin maraqlı, oxunaqlı olmasına çalışırıq.

Qəzetlərimiz müxtəlif xəbərlərlə yanaşı, analitik yazılarla da oxucuların görüşünə gəlir. Təhsilimizdə, mədəniyyətimizdə, ictimai həyatımızda, sosial münasibətlərdə baş verənlərə də geniş yer veririk. Bu yazılar sosial şəbəkələrdə yayılan yoxlanılmamış, ictimai dəyəri olmayan açıqlamalardan kəskin fərqlənir. Bizim yazılarda dilin qrammatik qaydaları da qorunur, necə deyərlər, nöqtəsi-vergülü yerində olur.

149 il əvvəl Azərbaycan mətbuatının təməl daşı qoyuldu. Məqsəd də o idi ki, millətimizin millətlər arasında imzası olsun. 1991-ci ildə müstəqillik əldə edildi, 2020-ci ildə, Qarabağımız işğaldan azad olundu, bu gün Azərbaycan dövləti öz xarici siyasətini uğurla həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev fəxrlə deyir: "Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir." Böyük Həsən bəy isə deyirdi ki, hər bir vilayətin qəzeti gərək o yerin aynası olsun. Bu dəyərlərin keşiyində biz jurnalistlər həmişə ayıq-sayıq dayanacağıq. İctimai söz cəmiyyətin işığı, zamanın salnaməsidir.

Peşə bayramımıza çevrilmiş 22 İyul günümüz mübarək, əziz həmkarlarımız. Qələminiz həmişə iti, sözünüz kəsərli, imzanız tanınan olsun.

***Elmira MEHDİYEVA,***
***Əməkdar mədəniyyət işçisi***

**Zaqatala**

# Bölgələrdə media görüşləri

**Respublikamızın şəhər və rayonlarında da Milli Mətbuat Günü ilə əlaqədar müxtəlif tədbirlər keçirilir. Jurnalistlərlə keçirilən görüşlərdə milli mətbuatımızın 149 illik fəaliyyəti yüksək dəyərləndirilir, media təmsilçilərinə səmimi bayram təbrikləri çatdırılır.**

## ŞƏMKİR



**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev 22 İyul Milli Mətbuat Günü münasibətilə bölgədə fəaliyyət göstərən jurnalistlərlə görüş keçirib. MərasimdəAzərbaycan mətbuatının yaranması tarixindən, media ilə dövlət qurumlarının əməkdaşlığı diqqət mərkəzində olub.**

İcra hakimiyyətinin başçısı media nümayəndələrini Milli Mətbuat Günü ilə əlaqədar təbrik edib, gələcək işlərində uğurlar arzulayıb. Rayon rəhbəri son illər Şəmkir rayonunda görülən işlər, qarşıya qoyulan məqsədlər barədə KİV nümayəndələrinə ətraflı məlumat verib, onları maraqlandıran sualları cavablandırıb. O, mətbuatla səmərəli əməkdaşlığın bundan sonra da davam edəcəyindən əminliyini bildirib.

Çay süfrəsi arxasında davam edən söhbətdə həm media işçiləri ilə icra hakimiyyətlərinin qarşılıqlı əlaqələrinin vacibliyinə toxunulub, ölkəmizdə qarşıya qoyulan vəzifələrin həllində sözlə əməlin vəhdətinin önəmi vurğulanıb.

Sonda jurnalistlərə RİH başçısının Fəxri fərmanları təqdim olunub.

## GORANBOY

**Goranboy rayonunda da milli mətbuatımızın növbəti ildönümünə həsr olunmuş toplantı keçirilib. Olimpiya Kompleksində təşkil olunan dəyirmi stol söhbətində media və dövlət orqaqnlarının səmərəli əməkdaşlığından geniş söz açılıb.**

Qərb bölgəsini təmsil edən KİV nümayəndələrinin, yerli mətbuat işçilərinin iştirak etdiyi toplantıda media təmsilçilərini təbrik edən rayon icra hakimiyyəti jurnalistlərin fədakar fəaliyyətini bir daha vurğulayıb. Rayon rəhbəri qeyd edib ki, tarixi qələbəmizin əldə olunmasında da mediamız ordumuzla yanaşı dayandı. Şəhid olan, yaralanan mətbuat işçilərimiz də var.



Çıxış edənlər mətbuatımızın durumunu daim diqqətdə saxlayan ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər. Sonda jurnalistlərə "Təşəkkürnamə"lər təqdim olunub.



## NAFTALAN

**Naftalanda da Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə milli mətbuatın yaranmasının 149 illiyi münasibətilə media nümayəndələri ilə görüş keçirilib.**

İcra hakimiyyətinin başçısı Vüqar Novruzov jurnalistləri təbrik edib. O bildirib ki, 149 illiyini qeyd etdiyimiz Azərbaycan mili mətbuatı zəngin və mənalı inkişaf yolu keçib. ŞİH-in kütləvi informasiya vasitələri ilə sıx əlaqələr qurduğunu qeyd edən şəhər rəhbəri jurnalistlərə səmərəli fəaliyyət, uğur arzulayıb.

Mətbuat nümayəndələri Azərbaycan mətbuatına göstərilən yüksək dövlət qayğısından söhbət açaraq bundan sonra da xalqa sözlə xidməti məsuluiyyətlə davam etdirəcəklərini söyləyiblər.

Görüşdə mətbuat nümayəndələrinə xatirə hədiyyələri təqdim olunub.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

# Mediamız xalqımızın tarixə çevrilən imzasıdır

**22 iyul Milli Mətbuat və Jurnalistika Günüdür. İntellektual cəmiyyət üçün söz yaradıcılarının, fikir və düşüncə sahiblərinin bayramıdır. Sözümüzün tarixi isə özümüz və özülümüz qədər dərindir. Hələ milli mətbuatımızın yaranmasından əvvəl Azərbaycanın ictimai fikir tarixi min ildən çox dövrü əhatə edən böyük bir təkamül yolu keçmiş və söz yaradıcılığının misilsiz ənənələrini yaratmışdır. Dədə Qorqud qopuzunun sədasından doğub, Nizami, Nəsimi, Füzuli kimi söz dühalarının cilasından keçən və Mirzə Fətəli yaradıcılığında artıq milli ideyanın ifadəçisi səviyyəsinə yüksələn Azərbaycan sözü Həsən bəy Zərdabinin "Əkinçi"si timsalında "materiallaşdı" və milli mətbuatımızın ilk nümunəsini ərsəyə gətirdi.**



Əşyaların adlandırılmasından başlayıb, milli ideyanı yetişdirməyə qədər yüksələn milli söz XIX əsr maarifçilərimizin fikir və düşüncələrində yetkinləşən milli ideologiyamızı ərsəyə gətirdi və onu ictimai şüurun aparıcı qüvvəsinə çevirə bildi. Sözdən düşüncələrə hoparaq, oradan də əməllərə keçən milli ictimai şüur isə ilk milli dövlətin yaranmasına gətirib çıxarması ilə dahi Füzulinin vəsf etdiyi "Əlahəzrət Söz"ün qüdrətini və təntənəsini nümayiş etdirdi. 149 yaşlı Milli mətbuatımız, sözün və söz sənətkarlığımızın öz funksiyasında ən yüksək əməli nəticələrə gətirib çıxardığı bu uzun yolun yeni dövr mərhələsidir.

Milli mətbuatımızın yarandığı dövr tarix üçün də yeni bir mərhələ idi. Bu, sözün sentimental və ruhani hissiyatların təsvirindən real həyat düşüncələrinin ifadəçisinə çevrildiyi, mifik qəhrəmanlığı göylərə yüksəldən mücərrəd saray poetikasından insanların düşüncəsinə nüfuz etməklə ictimai şüuru təkmilləşdirən, milli dünyagörüşünü formalaşmağa istiqamətləndirən və bununla da söz yaradıcılığına ictimai-siyasi çalarlar gətirən realist yaradıcılıq mərhələsinə keçdiyi bir mərhələ idi. Həmin dövrdən bu günümüzə uzanıb gələn yol söz və fikir tariximizin mübarizə, təkamül və qələbələr yoludur. İlk mətbu orqanımız "Əkinçi"nin işıq üzü görməsindən dərhal sonra bir-birinin ardınca açılan qəzetlərimiz ağır təzyiqlərlə üzləşərək, qısa müddətdən sonra bağlanmalı olurdular. Buna baxmayaraq,"Əkinçi","Ziya", "Kəşkül", "Kaspi" kimi mətbu orqanlarımız ictimai-siyasi şüurun inkişafına əhəmiyyətli təkan verdilər, insanların yeni həyat idealları uğrunda mübarizəsinə yol aça bildilər. Həsən bəy Zərdabi, Səid və Cəlal Ünsizadələr, Seyid Əzim Şirvani, Sultan Məcid Qənizadə, Firudin bəy Köçərli, Məmməd Kəngərli kimi milli ideya daşıyıcılarımız milli mətbuatımızın məktəb və ənənəsini yaratmağa nail ola bildilər. Heç təsadüfi deyil ki, o zamankı naşirlər və qəzetçilər peşə baxımından jurnalist deyildilər, lakin mətbuat onlar üçün xalqın, millətin şüuruna çatdırmaq istədikləri mütərəqqi ideyaların yayılmasına və keyfiyyətcə yeni bir cəmiyyətin yaranmasına nail olmaq üçün istifadə edə biləcəkləri ən müasir və ən kəsərli bir vasitə idi. Ona görə də XIX əsr ziyalılarımızın, demək olar ki, hamısının həyatı mətbuatla sıx bağlı idi. XX əsrin əvvəllərində isə Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Üzeyir Hacıbəyli və digər ziyalılarımız bu ənənəni davam etdirərək "Şərqi-Rus", "Həyat", "Açıq söz","Molla Nəsrəddin" və digər məşhur mətbu orqanlarımızı yaratmaqla artıq möhkəmlənməkdə olan milli şüuru dövlətçilik şüuruna yüksəldə bildilər. Məhz bu insanların fədakarlığı və əzmkarlığı sayəsində Azərbaycan milli şüuru elə yeni dövrün başlanğıcında özünün intibah mərhələsinə yüksəldi və tarixdə ilk türk cümhuriyyətini – azad insan və demokratik cəmiyyət nümunəsini yarada bildi. Mövcud olduğu qısa zaman kəsiyində "İnsanlara hürriyyət, millətlərə istiqlal" bəyan etmiş ilk milli Cümhuriyyətimizdə milli mətbuatımız azadlıq coşqusu ilə yüksəldi, böyüdü və gənc dövlətdə sürətli quruculuq və yaradıcılıq marafonuna əvəzsiz töhfələr verdi.1920-ci ildə müstəqilliyimizə son qoyan imperiya milli mətbuatımızın da müstəqilliyinə son qoydu. Imperiya nəzarəti altında yaranan yeni sovet mətbuatı isə yalnız bolşevik ideologiyasının imkan verdiyi özünəməxsus formatda mövcud ola bilərdi. Buna baxmayaraq, milli mətbuatımız mübarizə yolundan dönmədi. İctimai-siyasi hadisələrə obyektiv münasibət bildirməyin mümkün olmadığı ən çətin zamanlarda belə milli mətbuatımız öz səylərini əhalinin savadlanması, milli mədəni dəyərlərimizin qorunması və ən başlıcası isə doğma ana dilimizin ədəbi dil kimi təkmilləşməsi işinə yönəltdi. Milli-mədəni sərvətlərimizin, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasında misilsiz xidmətlər göstərdi.

Mətbuat nümayəndəsi olaraq cəmiyyətin nəzərlərini, diqqətini özünə cəlb edə bilmək nə qədər şərəfli bir yaradıcıq işi olsa da, bir o qədər də məsuliyyətli və bütünlüklə cəmiyyətin və dövlətin inkişafı üçün zəruri və məsuliyyətli bir missiyadır. Bu missiyanın öhdəsindən layiqincə gələnlər bütün dövrlərdə söz və fikir səltənətinin inciləri kimi parlayıb və millətin tarixinə parlaq səhifələr yazıblar. Elə parlaq səhifələr ki, onların şüası bütöv bir xalqın inkişaf və tərəqqi yoluna gur işıq saçıb, onun indisini və gələcəyini böyük bəlalardan xilas edib, xalqların taleyində həlledici rol oynayıblar. Məhz buna görə də milli mətbuatımızdan danışanda tarixi söz ustadlarımızın nurlu simaları gözlərimiz önündə canlanır, onların tarix yaradan söz və fikir yaradıcılığı parlaq bir örnək kimi nəsillərdən-nəsillərə ötürülür. Bu əbədi və ədəbi missiyanın daşıyıcıları fədakar insanlardır. Onlar sözün qüdrətini anlayan, o qüdrəti öz fəaliyyəti ilə nümayiş etdirən və özünün mətbuat sahəsindəki xidməti ilə mənsub olduğu xalqı da yetişdirən, şərəfləndirən və qüdrətləndirən şəxsiyyətlərdir. 149 yaşlı milli mətbuatımızın tarixi belə dühalarla zəngindir.

1991-ci ildə dövlət müstəqilliyimizin bərpası Həsən bəy Zərdabidən gələn keşməkeşli milli mətbuat yolunu yenidən işıqlandırdı və artıq onlarca deyil, yüzlərlə mətbu orqanı millətin azadlıq coşqusundan doğan əzmkarlıqla yeni cəmiyyət quruculuğuna qoşuldu. 1998-ci ilin avqustunda ümummilli liderimiz Heydər Əliyevin mətbuat üzərində senzuranın ləğv olunması haqqında tarixi fərmanı isə milli mətbuatımızı əbədi azadlığa qovuşdurdu, onun inkişaf yolunda intəhasız üfüqlər açdı.

Prezident Heydər Əliyevin mətbuata özəl münasibəti, mətbuat nümayəndələrinə qarşı sonsuz səmimiyyəti və qayğıkeşliyi elan olunmuş müstəqilliyin hələ kifayət qədər möhkəmlənmədiyi bir dövrdə milli mətbuatımızı dövlət quruculuğu işlərinə töhfələr verməyə sövq edirdi. Lakin bir tərəfdən, ölkədə hökm sürən müharibə şəraiti və digər tərəfdən, yaranmaqda olan yeni iqtisadi münasibətlər çərçivəsində maddi vəsait çatışmazlığı milli mətbuatımızın sərbəst inkişafını mümkünsüz edirdi. Cari istehsal fəaliyyəti üçün mətbu orqanlarının dövlət qurumlarına yaranmış külli miqdarda borcları çoxsaylı qəzet və jurnalları bağlanmaq təhlükəsi qarşısında qoymuşdu. Ən çətin zamanlarda milli mətbuatımıza xüsusi təəssübkeşliklə yanaşan Heydər Əliyev o zaman da media vasitələrinə dövlət qayğısının unikal nümunəsini yaratdı. Dövlət başçısının bu borcların silinməsi haqqında sərəncamı mətbu orqanlarına öz fəaliyyətini davam etdirmək üçün yeni və daha geniş imkanlar açdı.

Bugünkü dövrümüzdə isə Prezident İlham Əliyevin mətbuata münasibətdə sərgilədiyi səmimi dostluq münasibətləri milli mətbuatı və mətbuat nümayəndələrini dövlətçilik mənafeyi naminə ümummilli maraqlar ətrafında birləşməyə, xalqın mənafeyinə xidmət etməyə səfərbər etməkdədir. Bu gün Azərbaycan söz və fikir azadlığının tam bərqərar olduğu, hər bir vətəndaşın istənilən mətbuat orqanına maneəsiz çıxışının təmin olunduğu bir məkandır. Əhalinin 75 faizinin internet istifadəçisi olduğu bir cəmiyyətdə yeni texnologiyalara əsaslanan elektron kütləvi informasiya vasitələrinin inkişafı mətbuatın daha çevik, daha operativ fəaliyyət göstərməsi üçün ideal şəraiti təmin edir.

Bu gün Azərbaycanda dövlət – mətbuat – cəmiyyət üçbucağının elə bir konstruktiv konfiqurasiyası formalaşmışdır ki, bu qarşılıqlı münasibətlər sistemində Azərbaycanın müstəqilliyinin qorunması, Azərbaycan xalqının mənafeyinin və milli maraqlarının müdafiə edilməsi bütün tərəflər üçün prioritet hesab olunur. Mövcud münasibətlər sistemi hər bir vətəndaşın fərdi maraqlarından, hüquq və vəzifələrindən başlayaraq dövlətin milli maraqlarına və vətəndaş qarşısında öhdəliklərinə qədər ictimai-siyasi həyatın bütün səviyyələrində qarşılıqlı etimadı özündə ehtiva edir. Məhz belə bir münasibətlər sistemi dövlət – cəmiyyət vəhdətinin təməlini təşkil edir. Dövlətlə xalq arasında hökm sürən vəhdət isə öz növbəsində Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz edən başlıca amildir. Azad cəmiyyət və güclü dövlət tandeminin doğurduğu bu vəhdətin daha da möhkəmlənməsində milli mətbuatımızın rolu həlledicidir.

Son 10 ildə KİV təmsilçilərinin həyat və yaradıcılıq imkanları ilə yanaşı, peşəkarlıq səviyyəsinin də artdığını görməmək və qeyd etməmək olmaz. Bugünkü müasir jurnalist cəmiyyətin ən fəal, ən mübariz və ən vətənpərvər nümayəndəsidir. Bu gün milli yazarlarımızın yaradıcılığı, onların ölkə və dünya hadislərinə baxışı, çevik və obyektiv münasibəti yalnız milli mətbuatımızda deyil, beynəlxalq mətbuatda da özünə yer almaqdadır. Xarici ölkələrdə, xarici dillərdə dərc olunan dərgilərdə jurnalistlərimizin imzası millətimizin imzasıdır. Bu imzaların sayı nə qədər artırsa, millətimiz də bir o qədər böyüyür.

1990–2000-ci illər arasında jurnalist fəaliyyətinin nə yolla olur-olsun öz maddi ehtiyaclarını ödəmək və ya özünün subyektiv siyasi iddialarını qabartmaq vasitəsindən son 10 ildə dövlət və cəmiyyət üçün faydalı olmaq uğrunda intellektual rəqabət meydanına daxil olmasına doğru sürətli keçidi bu nəcib və məsuliyyətli peşəyə olan marağı və bu peşə sahiblərinin nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldə bilib. Bu gün Azərbaycan jurnalistikasını təmsil edən gənclər daha savadlı, daha məntiqli, daha faydalı yaradıcılığı ilə mətbuatı cəmiyyətin güzgüsü və mənəvi qidası statusuna yüksəldə bilirlər.

Bugünkü jurnalistikamız siyasi, iqtisadi, sosial və mənəvi həyatımızın hər üzünü olduğu kimi təqdim etməyə, oxucuları hərtərəfli düşünməyə və düşündürməyə yönəldən söz və fikir plüralizmini ortaya qoymağa, sadə dillə desək, ağa ağ, qaraya qara deməyə qadir olan, dövrümüzün sürətlə yeniləşən tendensiyalarını ictimai-siyasi şüura aşılamaq gücünə sahib olan fəaliyyət növüdür.

Yeni dövr milli mətbuatımız və onun təmsilçiləri qarşısında yeni tələblər qoyur. Dünya qloballaşır, bu, həm də o deməkdir ki, dünya kiçilir. Planetin istənilən guşəsində baş verən, bu və ya digər dərəcədə əhəmiyyət kəsb edən hadisələr bir an içində dünyanın hər tərəfinə yayılır. Yayılanların nə dərəcədə obyektiv və faydalı olmasından bəzən dövlətlərin və xalqların taleyi asılı olur. Beləliklə, mətbuatın işi dünyanın işi olur, – desək yanılmarıq. Milli mətbuatımız da dünya mətbuatının tərkib hissəsi kimi bu sürətli hərəkətlər trayektoriyasında öz izini açır. Bu gün belə bir məsuliyyətli fəaliyyətlə məşğul olmaq üçün sadəcə dəftər və qələm kifayət deyil. Sadəcə deməyə sözü olmaq da kifayət deyil. Sözünü vicdanla demək, millətin mənafeyinə və tərəqqisinə xidmət edən söz demək, demək istədiyini xalqa məhəbbətlə, dövlətə sədaqətlə, hər bir insana sevgi ilə çatdırmaq hər bir qələm sahibinin mənəvi borcuna çevrilir. Bu, milli mətbuatımızın yeni dövrə uyğun, xalqımızın və dövlətimizin tərəqqisi istiqamətində açılan geniş perspektivlərə hədəflənmiş yeni inkişaf mərhələsidir. Bu borcun öhdəsindən layiqincə gəlmək jurnalist peşəsini özünə həyat kredosu seçmiş insanlar üçün şərəf işidir.

Bu şərəfli işdə vətəndaş, xalq, dövlət və dünya qarşısında öz borcunu layiqincə yerinə yetirmək kimi məsuliyyətli missiyasında 149 yaşlı qocaman milli mətbuatımızın çağdaş nümayəndələrinə möhtəşəm uğurlar arzusu ilə,

**Cavanşir FEYZİYEV,**
**fəlsəfə doktoru**

Xatirələrdə yaşayanlar



## Zərdabi məktəbinin yetkin yetirməsi

*Məzahir Süleymanzadənin xatirəsinə*

**"Şamaxı" deyiləndə gözlərim önünə daim narahat torpaq, sanki dağların sinəsinə sərilmiş, yaz Günəşinin qurutduğu ağ köynək və işıqlı çöhrələr gəlir. O yer mənim üçün daha çox tariximizi yaşadan qədim şəhər, mədəniyyət, söz beşiyi olmaqdan başqa, gəncliyimin ən qaynar illərini qoyub gəldiyim ünvan, köhnə dostlarımın və yuxularımın qərar tutduğu bir məkandır. O şəhərin əyri-köndələn küçələrini qışın qarlı, yazın ürək rahatlayan, yayın qaynar çağlarında, payızın isə dumanlı-çiskinli günlərində gəzib-dolaşmışam.**

Şamaxı, mənim nəzərimdə nağıla bənzəyir. Hər küçəsində, hər dalanında neçə-neçə sirr yatır. Eyni zamanda, o şəhərdə ömrü nağıllaşmış yüzlərlə görkəmli insanın ruhu yaşayır.

Şamaxı həm də həmişəcavan şəhərdi. Çoxsaylı təbii fəlakətlər, müharibələr bu şəhəri dəfələrlə yerlə-yeksan etsə də, yenidən torpaqdan boy verib, ev-ev, küçə-küçə tikilib, ucalıb...

O şəhərdə neçə ünvan var ki, adı qəlbimə həmişəlik yazılıb. İllər əvvəl qoyub gəldiyim şəhərdə çox şey dəyişib. Amma mənim ürəyimdə otuz il əvvəlki Şamaxı yaşayır: qayğılı-qayğısız insanları, qədim Gülüstan qalasının məhəllələri, daim Günəşə boylanan üzümlükləri, dağlardan aranadək uzandıqca uzanan yolları və sair. Qəlbimdə səsi, sözü yaşayan insanların bir neçəsini bu şəhər tanıdıb, dost edib mənə. Buna görə də bəzən bir anlığa gəncliyimin şəhəri o məkana dönür, o insanları xatırlayır, onlarla hal-əhval tutur, dərdləşirəm. Belə insanlardan biri Məzahirdi. Çoxlarının istedadlı jurnalist, bacarıqlı media kapitanı, müəllim, futbol bilicisi və təşkilatçısı kimi tanıdığı Məzahir Süleymanzadə.

Onunla ilk dəfə harada görüşdüyümü dəqiq xatırlaya bilmirəm. Hərdən mənə elə gəlir ki, Məzahirlə eyni küçədə böyümüş, qayğısız uşaqlıq illərini birgə yaşamış, parta arxasında yanaşı oturmuşuq. Əslində, biz o çağların heç bir gününü də birgə olmamışıq. Bəs, onda niyə mən Məzahiri özümə dost, simsar sayıram? Çünki Məzahir saf, halal adamdı, xeyirxahdı, insanlara qarşı təmənnasızdı.

Məzahir jurnalistika fakültəsinə biz üçüncü kursda oxuyanda qəbul olunmuşdu. Amma bu vaxtadək onun rayon və respublika qəzetlərində çox sayda yazıları dərc olunmuşdu. Əsgəri xidmətdə olarkən hərbi qəzetlərə də müxbirlik etmişdi. Birinci kursda ikən qəzetlərlə, televiziyanın Gənclik Baş redaksiyası ilə ardıcıl əlaqə saxlayır, "Tələbə klubu"na aparıcılıq edirdi.

Məzahirin rəssamlıq qabiliyyəti də var idi. Fakültədə müxtəlif divar qəzetləri buraxılırdı. Həmin qəzetlərin çoxu həm yazılarının keyfiyyətinə, həm də tərtibatına görə aşağı səviyyədə idi. Bunu çoxları Məzahirin hazırladığı "Gənc jurnalist" qəzetini oxuduqdan sonra başa düşdü... Bütün bunlar Məzahirin jurnalistikaya gəlişinin təsadüfi olmadığını sübutlayırdı.

Təyanatla məni Şamaxıya göndərdilər və mən oraya həvəslə getdim. Arabir Məzahir redaksiyamıza gəlir və hər gəlişində də Bakıda və İttifaqın müxtəlif yerlərində yaşayan tanınmış şamaxılılar haqqında yazılar gətirirdi. Onun bu səpgili yazıları maraqla oxunurdu.

Bir gün iş otağıma bir oğlan gəldi və dedi ki, yumor və karikatura gətirmişəm, lazım bilsəniz istifadə edərsiz. Alıb baxdım, bir neçəsi xoşuma gəldi. Oğlan gedəndən sonra "uğurlu yol" yazıb, mətbəəyə göndərdim. Bir müddətdən sonra Məzahir redaksiyamıza gəlmişdi. Sözarası dedi ki, Mahirin karikaturalarını çap etmisiz, amma çox tərifləmisən... Başa düşdüm ki, Mahir Məzahirin qardaşı imiş. Mahir Süleymanov indi tanınmış jurnalistdi.

Məzahirin jurnalistlik fəaliyyəti, mətbuatımızdakı xidmətləri barədə geniş danışmağa, tərifli sözlərə ehtiyac duymuram.

O, ölkə mətbuatının flaqmanı olan "Xalq qəzeti"ndə uzun illər müxbir, məsul katibin müavini və redaktor müavini işləyib, yazıları ilə gözəl qələm sahibi, təşkilatçılığı ilə təcrübəli media kapitanı olduğunu sübut edib. Onu da qeyd edim ki, Məzahir Süleymanzadənin baş redaktoru olduğu "Səhər" qəzeti mətbuat tariximizdə öz yolu və nəfəsi olan nəşr kimi yaşayacaq. "Səhər" bir də ona görə qiymətlidir ki, adına layiq jurnalist dəstəsi yetişdirdi və bir çox mətbuat orqanı üçün yaxşı təcrübə məktəbi oldu.

Məzahir Süleymanzadə bir neçə il Bakı Futbol Federasiyasının vitse-prezidenti oldu. Futbolumuzun yüksəlişi naminə yaddaqalan layihələr həyata keçirdi. Bu layihələrdən biri "Sabahın ulduzları" adlanırdı. Həmin layihə uşaq futbolunun inkişafına və istedadlı idmançıların üzə çıxarılmasına kömək edirdi. Onu da deyim ki, bu layihəyə uzun illər redaktoru olduğum "Tumurcuq" qəzeti də dəstək verirdi. Qəzet ən məhsuldar hücumçu üçün mükafat təsis etmişdi. "Qarabağ" klubunun yeniyetmə futbolçuları çempion olanda medalların təqdim edilməsi "Tumurcuğ"un redaksiyasında keçirildi. "Çempion" idman qəzeti isə yarışların gedişini ardıcıl işıqlandırırdı.

Məzahirin layiq olduğu fəxri adları və mükafatları sadalasaq uzun siyahı alınar. Bunlar onun halal haqqıdır. Bunu da deyim ki, məncə, Məzahir digər hansı peşə və sənəti seçsəydi, yenə əsl sənətkar kimi şöhrət qazanardı.

M.Süleymanzadənin ona yaxın kitabı nəşr olunub: "Güllələnmiş Səhər", "İzim qalmasa da sözüm qalacaq", "Ocaq başında"(şeirlər), "Jurnalist ömrünün naxışları", "20 Yanvar dialoqu" və sair. Bu kitablar toplum halında onun ömrünün parçalarıdır. "Jurnalist ömrünün naxışları" kitabında özünün çox sevdiyi bir şeiri var. Yazır:

**Yenə yol gedirəm taraqqataraq,**
**Mindiyim qatarın sürəti bəlli.**
**Mən gah yeriyərək, gah da qaçaraq,**
**Ömür yaşamadım heç düz-əməlli.**

Bəli, jurnalist ömrü belədi. Yazdıqları ürəklərə işıq salsa da, ömrü-günü yazılarında əriyib gedir. Məzahir Süleymanzadə də daim narahat və qayğılı jurnalist ömrü yaşadı. Onun izi də, sözü də mətbuatımızın tarixində yaşayacaq. Ruhu şad olsun!

**Səməd MƏLİKZADƏ**

Köşə

## 22 iyulun övladları

**Azərbaycan jurnalistlərinin, daha dəqiq desək, bütün jurnalistikanın əcdadı sayılan qəzetçiliyi özünə sənət seçib işinin peşəkarı olanların öz bioloji doğum günündən ikinci doğum günü də var: 22 iyul. "Əkinçi" qəzetinin nəşrə başladığı günü deyirəm.**



*Gülcahan MİRMƏMMƏD*

Ulu bəyzadə babamız Həsən bəyin dövründə nəinki Azərbaycanda, bütün dünyada jurnalistika o qədər də inkişaf etməmişdi, əhali arasında sorğu aparıb reytinq cədvəli tutmaq da hələ kimsənin ağlına gəlməmişdi. O dövrdə qəzetçilik, tək-tək Avropa ölkələrində həm də həftəlik, aylıq dərgilər dünyada yeganə xəbər mənbəyi idi deyə, sadaladığımız anlayışlar hələ formalaşmamışdı. "Əkinçi"nin də məramı maarif toxumu səpmək, bütöv Azərbaycan toplumunda inkişafa, yeniliklərə təkan vermək istəyi olduğuna görə, bu işlər iqlimə, havanın yağıntılı, ya quraq keçməyinə baxmaz. Çünki məram demokratik ideyaları yaymaq, elmin, texnikanın yeniliklərini insanların şüurunda cücərtmək idi.

Bu gün isə milli jurnalistika subyektlərimizin məramı çoxçeşidlidir. Eynilə lap ölkəmizin ərazisindən keçən iqlim qurşaqları kimi.

Məsələn, bir qisim var ki, jurnalistikaya sipər, qalxan kimi baxır: özünün dürlü-dürlü niyyətlərinə çatmaqdan ötrü nəyə desən, əl atmağa hazırdır. Bu səbəbdən də hansı üsulla olursa-olsun, əhatə dairəsini genişləndirməyə can atır. Bu üsul məişət, şou-biznes səviyyəsində yalan, dezinformasiya da ola bilər, dövlət sirrinin yayılması da. Hər ikisinin bədəli ağırdır.

Bir qisim də var ki, onun jurnalistikada bulunması eynilə Molla Nəsrəddinin (bizim ikinci babamız – "Molla Nəsrəddin"ə dəxli yoxdur) "molla da tacirdir" desinlər tipli konsepsiyasına oxşayır. Onun çıxardığı qəzeti, daha çox hallarda dərgini, daha az hallarda da elektron portalını kim oxuyur, niyə oxuyur kimi suallar da özünü heç ilgiləndirməz. Əsas odur ki, onun çox zaman elə özü kimilərdən başqa kimsəyə gərək olmayan qəzeti (oxu: jurnalı, saytı) var!

Nəhayət və ən başlıcası, böyük bir qisim də var ki, bəyzadə Zərdabinin dost-doğma kötükcəsi, mənəvi ardıcılı adını daşımağa layiqdir. Bu qisim çığırmaz-bağırmaz, iş vəsiqəsini harada gəldi gözə soxmaz, ictimai nəqliyyatdakı kiçik narazılıqdan tutmuş canlı efirlərin qalmaqal şoularında görünməyə can atmaz, başını aşağı salıb öz işi ilə məşğul olar. Əslində, yazısını yazanda başını bir qədər də aşağı dikər: amma ətrafında baş verənləri daha çox öz bəsirət gözüylə lap yaxşı görər, yoruldum deməyən düşüncəsi ilə bütün suallara cavab tapar və bu cavabı hamı ilə paylaşar.

Bax, "mən də 22 iyulda doğuldum" demək məhz bu insanların haqqıdır. Sözün qədrini bilən, yazdığının başına fırlanan, klaviaturadan ekrana köçən fikrinin arxasında duran, imzasının məsuliyyətini daşıyanların haqqıdır.

Böyük çıxmasın, deyəsən, mən də onlardanam.

Şişirtmə kimi də görünməsin, elə onların arasındayam.

Ağlım kəsəndən sözün içindəyəm.

Sözün içindəyəm ki, öz sözümü deyə bilim. Bu söz bir ananın vətəndaş mövqeyindən demək istədiyi Qadın sözüdür.

Təki eşidənlərimiz olsun!

Mətbuat günümüz də mübarək!

# Azərbaycanın xarici ticarət coğrafiyası dünyanı əhatə edir

## *5 ayda dövriyyə 18 milyard 225 milyon dollara çatıb*

**Ölkəmizin hüquqi və fiziki şəxsləri tərəfindən 5 ay ərzində dünyanın 164 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirilib, 104 ölkəyə məhsul ixrac olunub, 154 ölkədən isə idxal edilib.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, 2024-cü ilin yanvar-may aylarında ölkənin xarici ticarət dövriyyəsi 18 milyard 225 milyon ABŞ dolları təşkil edib. Ticarət dövriyyəsinin 10 milyard 925 milyon dollarını və ya 59,9 faizini ölkədən ixrac olunmuş məhsulların, 7 milyard 301 milyon dollarını (40,1 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib, nəticədə 3 milyard 624 milyon dollar məbləğində müsbət saldo yaranıb.

2024-cü ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 14 faiz, real ifadədə 22,5 faiz azalaraq 1 milyard 261 milyon dollar təşkil edib. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsində ilk beşliyi İtaliya (23,9 faiz), Türkiyə (13,9 faiz), Rusiya (9,4 faiz), Çin (7,2 faiz) və İsrail (5 faiz) tamamlayır. İxracda isə 38 faizlə İtaliya, 14,8 faizlə Türkiyə, 8,2 faizlə İsrail, 5,1 faizlə Hindistan, 3,9 faizlə Rusiya yer alıb.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,1 faizi Çin, 17,8 faizi Rusiya, 12,6 faizi Türkiyə, 6,1 faizi Avstraliya, 4,4 faizi isə Almaniya ilə aparılmış idxal əməliyyatlarının payına düşüb və bu ölkələr ilk beşlikdə qərarlaşıb.

Yeri gəlmişkən, 2024-cü ilin ilk yarısında 334 milyon 558 min dollar dəyərində 321 min 898 ton meyvə-tərəvəz ixrac edilib. Dövlət Gömrük Komitəsinin hesablamalarına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkədən ixrac olunan meyvə-tərəvəzin dəyəri 4,5 faiz və ya 15 milyon 870 min dollar, həcmi isə 7,7 faiz və ya 26 min 876 ton azalıb. 2023-ci ilin ilk yarısında Azərbaycandan 350 milyon 428 min dollar dəyərində 348 min 774 ton meyvə-tərəvəz ixrac edilib.

Xatırladaq ki, hesabat dövründə əsas ixrac olunan meyvə-tərəvəz məhsulları 136 milyon 949 min dollar dəyərində tomat (114 min 246 ton) , 51 milyon 900 min dollar dəyərində meşə fındığı (8 min 425 ton), 22 milyon 756 min dollar dəyərində alma (34 min 144 ton), 20 milyon 470 min dollar dəyərində kartof (48 min 234 ton), 27 milyon 780 min dollar dəyərində xurma (35 min 362 ton), 3 milyon 263 min dollar dəyərində nar (3 min 651 ton) olub.

Qeyd edək ki, cari ilin yanvar-iyun aylarında meyvə-tərəvəzin ümumi ixracda xüsusi çəkisi 2,59 faizə, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 20,96 faizə bərabər olu

Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələrin həyata keçirilməsi nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Yuxarıdakı göstəricilərin əldə olunmasında təbii ki, sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir tədbirin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının güclənməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin,



texnoparkların, azad iqtisadi zonaların genişləndirilməsi də sürətləndirib.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Yeri gəlmişkən, ölkədə ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qarşıya mühüm vəzifə kimi qoyulub. Belə bir vəzifənin gerçəkləşdirilməsinin əsas şərti kimi davamlı və yüksək iqtisadi artıma nail olunması göstərilib.

Buna görə də Milli Prioritetlərə əsaslanaraq hazırda milli iqtisadiyyat şaxələndirilir, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün qeyri-neft iqtisadiyyatının inkişafı diqqət mərkəzində saxlanılır. İqtisadi artımın qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməsi, dövlət və özəl əməkdaşlığın gücləndirilməsi istiqamətində layihələr gerçəkləşdirilir. Bütün bunlarla bərabər, yeniliyə meyilli özəl sektorda aktivlik daha da canlandırılır, qeyri-neft sektorunun maliyyələşməsində bu sahənin payı artırılır.

# Azərbaycan "Şimal–Cənub" nəqliyyat dəhlizinin baş qapısıdır

**İyulun 19-20-də Aktauda Qazaxıstan Respublikası Baş nazirinin müavini Serik Jumanqarinin sədrliyi ilə birinci "Şimal–Cənub" ticarət-ixracat forumu keçirilib. Bu barədə Qazaxıstanın Nəqliyyat Nazirliyi məlumat yayıb.**




Nazirliyin məlumatına görə, son təyinat məntəqəsi Fars körfəzinin limanları və daha sonra Hindistana çıxışı olan "Şimal–Cənub" nəqliyyat dəhlizi geniş perspektivlər açır və iqtisadi inkişafın mühərriklərindən birinə çevrilə bilər. "Bu marşrutun inkişafı üçün bu gün İran, Türkmənistan və Rusiya ilə "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin şərq marşrutunun potensialının 2024-2025-ci illər üçün sinxron inkişafı üzrə "Yol xəritəsi" imzalanıb", – deyə məlumatda bildirilib. Qeyd olunub ki, bu sənədin həyata keçirilməsi 2027-ci ilə qədər dəhlizin ötürücülük imkanlarını ildə 15 milyon tona, 2030-cu ilə qədər isə 20 milyon tona çatdıracaq.

Qazaxıstanın nəqliyyat naziri Marat Karabayevin dediyinə görə, ölkəsi 2030-cu ilə qədər yük axınlarının artımı üçün yüksək potensiala malik olan və Hind okeanına ən qısa tranzit üçün ən təhlükəsiz marşrut kimi görünən "Şimal–Cənub" dəhlizinin şərq qolunun inkişafında fəal iştirakını davam etdirmək niyyətindədir. Onun sözlərinə görə, Qazaxıstan, Rusiya, Türkmənistan və İran ərazilərindən keçən "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin şərq marşrutunun potensialının sinxron inkişafı üçün bu gün imzalanan "Yol xəritəsi"nin praktiki icrasına başlamaq lazımdır.

Qeyd edək ki, "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas aktorlarının iştirakı ilə dəmir yollarının, avtomobil yollarının, limanların inkişafı ilə bağlı aktual məsələlərin müzakirəsi üçün platforma rolunu oynayan forumda Azərbaycan, Rusiya, Belarus, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri, İran, Özbəkistan və bir sıra digər ölkələrdən 440-dan çox təmsilçi, İqtisadi Əməkdaşlıq Təşkilatı və Avrasiya İqtisadi Komissiyasının nümayəndələri iştirak ediblər.

Yeri gəlmişkən, son illər Cənub-Şərqi Asiya ölkələri ilə Rusiya və Avropanı nəqliyyat baxımından birləşdirən bu nəhəng nəqliyyat-logistika infrastrukturunun funksionallığının artması müşahidə olunur. Hazırda sözügedən nəqliyyat dəhlizi ilə yükdaşımaların həcminin 10 milyon tonu keçməsi də bunu sübut edir. Hazırda bu istiqamətdə yükdaşımaları artırmaq məqsədilə bir sıra işlər həyata keçirilir. Bu ilin mayında Azərbaycanın Astara rayonunda yük terminalının yenilənərək istifadəyə verilməsi nəticəsində yükaşırma potensialının ilin sonuna qədər 1 milyon tona qədər artırılması planlaşdırılır.

Xatırladaq ki, "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin təməli 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Ötən müddətdə 13 ölkə sözügedən sənədi ratifikasiya edib. Yeri gəlmişkən, hazırda mövcud marşrutla Hindistandan Rusiyaya yüklərin çatdırılması üçün 6 həftədən artıq vaxt tələb olunur. Beynəlxalq nəqliyyat dəhlizinin tam fəaliyyətə başlamsı isə bu müddətin iki dəfə azalmasına səbəb olacaq.

Sözügedən nəqliyyat marşrutunun formalaşmasında tranzit ölkə kimi mühüm rol oynayan Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Avrasiya materikinin şimal və cənub hissələri arasında mühüm nəqliyyat-logistika rolunu oynayan dəhlizin Azərbaycan ərazisindən keçən hissəsində ötən müddətdə böyük infrastruktur layihələri həyata keçirilib. Bu baxımdan Bakı Dəniz Ticarəti Limanı xüsusi əhəmiyyət daşıyır. Son illər limanın yükaşırma qabiliyyətinin artırılması ilə bağlı görülən işlər onun beynəlxalq statusunu xeyli gücləndirir. Bundan əlavə, Ələt-Astara avtomobil yolunun yenidən qurulması, İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsünün istifadəyə verilməsi ölkəmizin tranzit rolunun xeyli artmasına səbəb olub.

Bütövlükdə isə, Prezident İlham Əliyevin "Şimal–Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan)–Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib, Astaraçay üzərində dəmiryol və avtomobil körpüləri inşa olunub, buradan İran İslam Respublikası ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib. Dəhliz çərçivəsində nəzərdə tutulmuş infrastruktur layihələri tamamlandıqdan sonra İran ərazisindən keçməklə Bakıdan Naxçıvan Muxtar Respublikasına dəmir yolu ilə birbaşa daşımaların təşkili mümkün olacaq.

Yeri gəlmişkən, Prezident İlham Əliyev iyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən "ŞƏT plyus" formatında görüşdə ölkəmizin Avrasiya materikinin cənubu ilə şimalını birləşdirən bu marşrutun inkişafında mühüm rol oynadığını vurğulayaraq deyib: "Şimal–Cənub" dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurla fəaliyyət göstərir. Hazırda biz dəmir yolu daşımalarının həcminin ildə 15 milyon tona qədər artırılması üzərində işləyirik, sonradan zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq".

Yaxın gələcəkdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin illik gəliri 20 milyard dollara çatacaq. Eyni zamanda, dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Ekspertlər hesab edirlər ki, ölkəmiz bu nəqliyyat dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollar qazanacaq.



# "Azexport" portalı TDT ölkələri şəbəkəsində

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport" portalı Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin "OTS Made"(TDT İstehsal) brendinin yaradılması ilə bağlı təşkil olunan iclasında təqdim olunub.**

Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Qubada Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Şimali Kipr Türk Respublikasının kənd təsərrüfatı nazirliklərinin nümayəndələrinin iştirakı ilə reallaşan görüşdə "Azexport" portalının "Made in Azerbaijan" məhsullarının xarici bazarlarda tanıdılması istiqamətində görülən işlərə dair məlumat verilib.

Tədbirdə təqdimatla çıxış edən "Azexport"un rəhbəri Ayxan Qədəşov portalın Azərbaycanda istehsal olunan malların vahid məlumat mərkəzi olmaqla yanaşı, təkmil "big data" bazası kimi də tanındığını bildirib. O daha sonra qeyd edib ki, fəaliyyət müddəti ərzində portala daxil olan sifarişlərin təhlili gerçəkləşdirilərək ixrac coğrafiyası və ixrac həcmi barədə önəmli statistika hazırlanıb. Bununla da portala daxil olan sifarişlərin həcminə əsasən, yerli və beynəlxalq bazarlarda məhsul üzrə tələbatı öncədən görmək, həmçinin qiymət artımını qabaqcadan proqnozlaşdırmaq mümkün olub.

Təqdimatda "Azexport"un Azərbaycan məhsullarının xarici bazarlara çıxarılmasında istifadə etdiyi metodologiya və təcrübənin "OTS Made" brendinin yaradılmasında uğurlu nümunə kimi tətbiq oluna bilcəyi vurğulanıb.

# "Araz Vadisi İqtisadi Zonası"na bir şirkət də daxil oldu

**"Karabakh Stone" MMC-yə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib. Bununla da sənaye parkının rezidentlərinin sayı 11-ə yüksəlib.**



İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) redaksiyamıza bildirilib ki, müəssisədə yüksək keyfiyyətli tamet daşların istehsalı həyata keçiriləcək. İnvestisiya dəyəri 3,8 milyon manat olan zavodda 25 nəfər işlə təmin olunacaq. İstehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına investorlar tərəfindən, ümumilikdə, 83,4 milyon manatdan artıq investisiyanın yatırılması, 700-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bugünədək sənaye parkına 14 milyon manatdan çox investisiya yatırılıb.

Qeyd edək ki, azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsində, eləcə də sənaye sahəsində məşğulluğun təmin olunmasında mühüm rol oynayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı "Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında" Prezident İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli Fərmanı ilə Cəbrayıl rayonunda yaradılıb.

Parkın logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi də onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, parkın ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınmasına imkan verir.

200 hektar ərazini əhatə edən parkın prioritet istiqamətləri kimi logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin təşkili müəyyənləşdirilib. Bütün bu amillər həm yerli, həm də xarici iş adamalarının marağına səbəb olub.

Bir sözlə, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılmasında əsas məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil olunması, eyni zamanda, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

# Dövlət standartları 6 ayda 2 dəfə artıb

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən cari ilin 6 ayı ərzində qəbul edilən dövlət standartlarının sayında 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfəyədək artım qeydə alınıb.**




Dövlət Xidmətin yaydığı məlumata əsasən, yeni standartların qəbulu məhsul və xidmətlərin keyfiyyət, uyğunluq və təhlükəsizlik göstəricilərinin artmasına töhfə verəcək.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



## Azərbaycanın qlobal təşəbbüsü: İqlim Maliyyəsi Fondu

**COP29-un baş danışıqçısı Yalçın Rəfiyev COP29 Azərbaycan Sədrliyinin mətbuat konfransında İqlim Maliyyəsi Fondunun (Climate Finance Action Fund) yaradılmasının Azərbaycanın təşəbbüslərindən biri olduğunu bildirib. Y.Rəfiyev yeni maliyyə mexanizminin yaradılmasında əsas məqsədin iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək olduğunu vurğulayıb. COP29-un baş danışıqçısı bunun üçün qrant əsaslı 1 milyard dollar vəsait toplanılmasının zəruriliyini xatırladıb.**




Y.Rəfiyev vurğulayıb ki, İqlim Maliyyəsi Fondu Azərbaycan fondu olmayacaq, çoxtərəfli bir maliyyə qurumu kimi fəaliyyət göstərəcək. Fondun işində tərəfdar dövlətlər də iştirak edəcək və rəhbərlər bu sahəyə töhfə verən dövlətlərdən seçiləcək. Çoxtərəfli maliyyə təşkilatları onun fəaliyyətinə nəzarət edəcək. Bakı sadəcə bu fondun katibliyinə evsahibliyi edəcək.

COP29-un baş danışıqçısı onu da diqqətə çatdırıb ki, qrant əsaslı töhfələri lazım bilmələrinin səbəbi kiçik ada dövlətləridir: “Kiçik ada dövlətlərinin şikayətlərindən biri o idi ki, təbii fəlakət baş verəndə onlar beynəlxalq təşkilatlara müraciət etsələr də bu, nəticəsiz qalır. Ona görə də Azərbaycan alternativ maliyyə qurumunun yaradılması təşəbbüsünü irəli sürdü və bu, müsbət dəyərləndirildi.

Y.Rəfiyevin sözlərinə görə, ayrılacaq vəsaitin 50 faizi iqlim fəaliyyətinə, “yaşıl enerji” texnologiyalarına yönəldiləcək. İnvestisiyalardan gələn gəlirlərin 20 faizi isə “2R2F” adlandırılan maliyyə mexanizmi vasitəsilə inkişaf etməkdə olan ölkələrə istiqamətləndiriləcək. İqlim Maliyyəsi Fondu kiçik və orta bərpaolunan enerji istehsalçılarına da dəstək göstərəcək.

“Biz hamımız o fikirdəyik ki, indi hərəkətə keçməliyik. İqlim üzrə maliyyənin hazırkı miqyası kifayət qədər deyil. 1,5 °C-yə gedən yol Bakıdan keçir. Bu, asan həll yolu deyil. Biz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, qlobal Cənub və qlobal Şimal arasında, ada və qitə ölkələri arasında inam yaratmalıyıq. COP29-u hər kəsin səsinin eşidildiyini hiss edəcəyi əhatəli mühit olmasını təmin etməyəkdə qərarlıyıq”, – deyə Y.Rəfiyev bildirib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev iyulun 13-də ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidini qəbul edərkən də bu barədə fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı ölkəmizin “yaşıl keçid” siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışaraq inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu deyib və “Commonwealth” təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını bildirib.

COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev də ayrı-ayrı çıxışlarında iqlimlə bağlı bütün səylərin dəstəklənməsində maliyyənin mühüm rol oynadığını vurğulayıb. O, bu sahədə irəliləyişlərin əldə olduğunu qeyd edərək, eyni zamanda, qlobal maliyyə institutlarına məqsəd və fəaliyyətlərində daha da irəliləmək barədə çağırışlarını bildirib.

“Qlobal maliyyə institutları bizim yaşamaq üçün əlverişli planet və yoxsulluqdan azad bir dünya yaratmaq niyyətimizlə bağlı artıq müsbət mesajlar veriblər və onlar iqlimlə bağlı öhdəliklərini konkret fəaliyyətlərlə gücləndirirlər”, – deyə COP29-un prezidenti xatırladıb. Onun sözlərinə görə, iqlim maliyyəsini daha geniş miqyasda əlçatan etmək üçün bu qurumlar genişmiqyaslı tədbirlər görmədirlər: “Biz fəaliyyətlərimizi ən mümkün yüksək məqsədlər səviyyəsində aktivləşdirməliyik. Biz dünən həyata keçirilməsi mümkün olmayanları bu gün gerçəkləşdirməliyik. Tərəfləri bir araya gətirmək, keçmiş vədlərin yerinə yetirilməsinə əmin olmaq və geridə heç nə qoymamaq üçün əlimizdən gələni etməkdən usanmamalıyıq.

COP29-un baş danışıqçısı Yalçın Rəfiyev qeyd edib ki, İqlim Maliyyəsi Fondu 1 milyard ABŞ dolları həcmində kapitallaşdırmaq məqsədi daşıyan ilkin fandreyzinq mərhələsi başa çatdıqdan və 10 iştirakçı ölkə səhmdar kimi öhdəlik götürdükdən sonra fəaliyyətə başlayacaq.

Fond istiləşməni 1,5°C-yə qədər saxlamaq üçün gələcək nəsil milli səviyyədə müəyyənləşdirilən töhfələrin tələblərinə cavab verməklə dəstəyə ehtiyacı duyulan inkişaf etməkdə olan ölkələrdə iqlim layihələrini hədəf alacaq.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyası bu ilin noyabrında Azərbaycanda keçiriləcək.

Yeri gəlmişkən, inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişikliyinin yaratdığı fəsadlara qarşı daha çox həssaslıq nəzərə çarpır. Bu məqsədlə 2009-cu ildə Danimarkada reallaşan COP15-də inkişaf etmiş ölkələr 2020-ci ilə qədər inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişmələri ilə bağlı problemlərin həlli məqsədilə hər il 100 milyard dollar məbləğində vəsait səfərbər etməyi öhdələrinə götürmüşdülər. Hazırda isə qlobal olaraq, təxminən, 73 ictimai və ya qismən ictimai iqlim fondu mövcuddur. Bu gün onların fəaliyyəti effektiv şəkildə əlaqələndirilmir. Çərçivə Konvensiyasının çətiri altında olan vəsaitlər kifayət qədər kapitallaşdırılmayıb. Bu fondların 2020-ci ildə müxtəlif layihə və proqramlara, ümumilikdə, 3-4 milyard dollar ödədiyi bildirilib.

Qeyd edək ki, Azərbaycanın COP29-da sədrliyi ən mühüm mövzuya – iqlimin maliyyələşdirilməsinə həsr olunub. İtki və Zərərlərin Ödənilməsi Beynəlxalq Fondu tərəfindən sənaye güclərinin inkişaf etməkdə olan ölkələrə yardım göstərməsinə imkan yaratmaq üçün kompensasiya mexanizmi təqdim edilib. Bununla belə, adıçəkilən fond indiyədək cəmi 429 milyon ABŞ dolları toplayıb ki, bu da həmin ölkələrə dəymiş zərərdən xeyli az olub. Buna görə də ekspertlər tərəfindən Bakıda keçiriləcək COP29-a iqlim maliyyəsinin ədalətli bölüşdürülməsi platforması kimi yanaşılıb.

Dünya İqtisadi Forumunun məlumatına görə, 2023-cü ildən etibarən dünyada bərpaolunan enerji potensialının artımı müşahidə olunur. Bu hesabata əsasən, 2024-cü ildə 473 GVt bərpaolunan enerji gücü əlavə edilib ki, bu da ötən illə müqayisədə 36 faiz çoxdur, lakin iqlim məqsədlərinə çatmaq üçün kifayət deyil.

Bərpaolunan enerjiyə ümumi qlobal sərmayə 2023-cü ildə 8,1 faiz artaraq 623 milyard dollara çatıb. İqlimlə bağlı arzuedilən məqsədlərə nail olmaq üçün isə hər il, təxminən, 1,3 trilyon dollar tələb olunur.

Ötən il BƏƏ-də keçirilən COP28 konfransında inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq, iqlimin maliyyələşdirilməsi üçün müzakirələr davam etdirildi. Bu il isə COP29 çərçivəsində isə 2030-cu ilə qədər bərpaolunan qlobal enerji potensialının üç dəfə, enerji səmərəliliyinin ikiqat artırılması və mədən yanacaqlarından “yaşıl iqtisadiyyat”a keçidin sürətləndirilməsi üzrə öhdəliklər müzakirə ediləcək.

Azərbaycan qlobal istiləşməni 1,5°C ilə məhdudlaşdırmaq yolları ilə bağlı beynəlxalq konsensus yaratmağa davam edəcək. COP29-da tərəflərin iqlim maliyyəsi üçün yeni kollektiv kəmiyyət məqsədi (NCQG) üzrə razılığa gəlmələri, həmçinin 6-cı maddə və ədalətli keçid gündəliyi çərçivəsində işlərini davam etdirmələri gözlənilir.

Nəhayət, Azərbaycan COP29 konfransına evsahibliyi etməyə hazırlaşarkən bərpaolunan enerji mənbələrinin payını artırmağı, eləcə də bu sahəyə özəl investisiyalar vasitəsilə “yaşıl enerji” potensialını açmağı öhdəsinə götürüb. Ötən ay Səudiyyə Ərəbistanı və Azərbaycan davamlı və dayanıqlı qlobal enerji keçidi istiqamətində enerji sektorunda ikitərəfli əlaqələrin gücləndirilməsinə sadiq olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyənləşdirilib və bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlığa dair imzalanan sənədlərdə də ətraf mühit və iqlim məsələlərinə xüsusi yer verilib.

## Milli neft şirkətimiz də “yaşıl”laşır

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2050-ci ilə qədər qlobal miqyaslı əməliyyatlarında enerji təhlükəsizliyi və dayanıqlılığına zəmanət verən milli enerji şirkətinə çevrilməyi planlaşdırır. Bunu şirkətin Ətraf mühit ilə bağlı məlumatların açıqlanması və əlaqələrin idarə edilməsi departamentinin rəisi Mustafa Qurbanlı “SOCAR-ın dekarbonizasiya strategiyası və gələcək perspektivlər” mövzusunda təqdimatla çıxışı zamanı bildirib.**



Enerji keçidinin SOCAR-ın prioritet inkişaf istiqamətlərindən biri kimi təsbit olunduğunu vurğulayan departament rəisi qurumun “yaşıl” gündəlik üzrə götürdüyü öhdəliklər, bu istiqamətdə həyata keçirilən tədbirlər və layihələr barədə məlumat verib. SOCAR-ın dekarbonizasiya proqramı barədə danışan departament rəsi deyib ki, şirkət, ilk növbədə, öz emissiyalarını ölçmək niyyətindədir. Hazırda bu prosesin ən çətin yerlərdə uğurla davam etdirildiyin vurğulayan M. Qurbanlının sözləriinə görə, dekarbonizasiya proqramı çərçivəsində həmin emissiyaların azaldılması təmin ediləcək.

Bildirilib ki, Azərbaycan Dövlət Neft Şirkətində neft-qaz şirkətindən enerji korporasiyasına çevrilmək üçün 1 il yarımdan artıq müddət ərzində transformasiya prosesi davam edib.

SOCAR-ın elan etdiyi orta və uzunmüddətli perspektivdə dekarbonizasiya məqsədləri barədə məlumat verən M. Qurbanlı 2050-ci ildə bütün əməliyyatlarda “Xalis sıfır”a çatmasının şirkətin əsas hədəflərindən olduğunu diqqətə çatdırıb. Departament rəisi, həmçinin ölkəmizdə bərpaolunan enerji mənbələrinin genişləndirilməsi strategiyasına uyğun olaraq SOCAR tərəfindən tərəfdaş şirkətlərlə birgə bir sıra layihələr üzrə işlərin uğurla davam etdirildiyini bildirib.

Qeyd olunub ki, SOCAR istixana qazlarının emissiya göstəricilərinin, karbon dioksid və metan emissiyalarının azaldılması üzrə real addımların öyrənilməsinə və şirkətin “yaşıl layihə”lər portfelinin qiymətləndirilməsinə əsasən 2050-ci ilədək mərhələli dekarbonizasiya proqramı hazırlayıb. “Bununla bağlı SOCAR öz emissiyalarında ölçmələr həyata keçirir. Dekarbonizasiya mərhələsində azalmanı təmin etməyi hədəfləmişik. SOCAR-da yeni seqmentlər yaradılıb, yeni bizneslərin yaradılması istiqamətində işlər görülür. Külək, günəş, “yaşıl hidrogen” məsələləri araşdırılır”, – deyə o əlavə edib. Onun dediyinə görə, şirkət 2030-cu ilədək qazın məşəldə yandırılmasını tamamilə dayandırmağı, hasilatda istixana qazlarının emissiyasını 2022-ci ilin göstəricisi ilə müqayisədə 30 faiz azaltmağı, 2050-ci ildə isə “Xalis sıfır” səviyyəsinə çatdırmağı planlaşdırır.

Ötən müddətdə SOCAR-da yeni bizneslərin yaradılması istiqmətində işlərin görüldüyünü xatırladan M. Qurbanlı deyib ki, hazırda aşağı karbonlu bizneslərdən sayılan külək, günəş, hidrogen enerjisi, eləcə də digər istiqamətlərdə araşdırmalar aparılır. Aşağı karbonlu layihələrin icrası isə bir qədər əvvəl yaradılmış SOCAR GREEN şirkəti vasitəsilə həyata keçiriləcək.

2050-ci ilədək metan emissiyalarının azaldılması üzrə böyük işlərin nəzərdə tutulduğunu bildirən M. Qurbanlı bu problemin karbohidrogen hasilatı prosesində xüsusi aktuallıq kəsb etdiyini diqqətə çatdırıb. “Xarici tərəfdaşlarımız, xüsusən ən son texnologiyalardan istifadə yolu ilə qarşıya qoyduğumuz məqsədləri reallaşdırmağımıza imkan yaradır. Bu baxımdan, BP, “TotalEnergies” və “ADNOC” şirkətləri ilə əməkdaşlıq artıq inkişaf edir”, – deyə departament rəisi əlavə edib.

M. Qurbanlı, həmçinin deyib ki, SOCAR, Azərbaycan İnvestisiya Şirkəti və BP 2025-ci ilin sonuna kimi Cəbrayıl rayonunda 240 meqavat gücündə “Şəfəq” Günəş Elektrik Stansiyası layihəsinin həyata keçirilməsini planlaşdırır. Diqqətə çatdırılıb ki, burada istehsal olunacaq elektrik enerjisi virtual olaraq Səngəçal terminalına ötürülürək sözügedən obyektin dekarbonizasiyasının təmin olunmasına öz töhfəsini verəcək.

SOCAR rəsmisi, həmçinin aparıcı qlobal şirkətlərlə birgə Azərbaycanda həyata keçirilən irimiqyaslı bərpaolunan enerji və “yaşıl hidrogen” layihələri ilə bağlı məlumat verib. Bu baxımdan iyun ayında keçirilən Bakı Enerji Həftəsi çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti ilə iki meqa layihənin təməlinin qoyulduğu qeyd olunub. Bununla yanaşı, “Masdar” və Səudiyyə Ərəbistanının “Acwa Power” şirkətləri ilə dənizdə külək enerjisinin istehsalı ilə bağlı anlaşma müqavilələri var. Bütün bu layihələrin SOCAR-GREEN şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçiriləcəyi bildirilib.

Azərbaycan Dövlət Neft Şirkətinin karbon kreditləri sahəsində reallaşdırdığı layihələrdən bəhs edən Mustafa Qurbanlı bildirib ki, bu proses sızmaların aşkarlanması və aradan qaldırılması çərçivəsində həyata keçirilib. Bunun da nəticəsində əldə edilən azalma həcmləri Almaniya bazarlarında satılaraq SOCAR tərəfindən təkrar “yaşıl layihələr”ə sərmayə kimi cəlb olunub. Ümumilikdə, SOCAR-ın karbon kreditləri ilə bağlı ilk layihəsinin uğurla tamamlandığını vurğulayan departament rəisi hazırda bu sahədə ikinci layihənin həyata keçirildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, layihə çərçivəsində 170-dən çox sızma müəyyən edilib ki, onların da aradan qaldırılması nəticəsində 60 min tondan çox karbon dioksidin emissiyasının azaldılması gözlənilir. Bildirilib ki, ikinci layihədən əldə olunan karbon kreditlərinin Avropada, Almaniya bazarında satışı nəzərdə tutulub. Yeri gəlmişkən, qeyd olunan sahə üzrə Almaniyada qanunvericiliyin dəyişdiyini diqqətə çatdıran departament rəisi bildirib ki, yeni tələblər müəyyənləşdirilib və layihə bunlara uyğun olaraq təkmilləşdiriləcək.

## KOB COP29-la tərəfdaşlığa qoşulur

**COP29 Azərbaycan Əməliyyat Şirkəti bu il noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 konfransı çərçivəsində yerli kiçik və orta biznesin (KOB) təmsil olunması üçün tərəfdaşlıq proqramını elan edib. Proqram çərçivəsində təklif olunan fürsət və imkanlar Əməliyyat Şirkətinin və COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin KOB nümayəndələri ilə keçirilən görüşündə açıqlanıb.**



Əməliyyat Şirkətinin mətbuat xidmətindən redaksiyamıza verilən məlumata görə, tərəfdaşlıq proqramının əsas hədəfləri yerli sahibkarlar arasında ekoloji cəhətdən təmiz və dayanıqlı istehsal üsullarının tətbiqini təşviq etmək, ətraf mühit və iqlim dəyişmələri mövzusunda maarifləndirmə işləri aparmaqdır.

Tərəfdaşlıq proqramı milli brendlərin məhsullarını beynəlxalq auditoriya qarşısında tanıtmaq məqsədilə yerli KOB məhsullarını dünya əhəmiyyətli COP29 konfransı çərçivəsində sərgiləməyə və ölkə iqtisadiyyatının inkişafında KOB payını dəstəkləməyə xidmət edir.

COP29 çərçivəsində yerli məhsulların sərgilənməsi, eyni zamanda, misilsiz ənənəvi Azərbaycan naxış və motivlərinin, milli ənənə və mənəvi dəyərlərimizin beynəlxalq səviyyədə təbliğinə bir töhfədir.

Görüşdə çıxış edən N.Arpadarai prioritet fəaliyyət istiqamətlərindən birinin KOB subyektlərinin “yaşıl biznes”ə keçidinin dəstəklənməsi olduğunu qeyd edib. O, yerli sahibkarlara KOB ilə birgə fəaliyyətin gücləndirilməsinin əhəmiyyətindən danışıb.

Tədbirdə yerli biznes subyektlərinin nümayəndələrinə proqrama müraciət şərtləri və qaydaları, məhsulların keyfiyyətinə dair tələblər, COP29-un “Yaşıl” və “Mavi” zonalarında sahibkarlar üçün yaradılacaq şərait, məhsulların brendinq və qablaşdırılmasına dair ətraflı məlumat verilib.

Görüşün yekununda sahibkarları maraqlandıran mövzu və suallar ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, COP29-la tərəfdaşlıq imkanlarından yararlanmaq niyyətində olan kiçik və orta biznes nümayəndələri müraciətlərini iyulun 31-dək merchandise@cop29.az elektron poçt ünvanına göndərə bilərlər.

## “Yaşıl” könüllülərin “quş yuvası”

***COP29 Azərbaycan Əməliyyat Şirkəti ətraf mühitin mühafizəsində kollektiv iştirakçılıq və məsuliyyətə çağırış olaraq “Kiçik dostlarımız üçün təkrar istifadə” şüarı altında ekoloji aksiya təşkil edib. Tədbir “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunun tərəfdaşlığı ilə İçərişəhərdə baş tutub.***




Aksiya çərçivəsində COP29 könüllüləri əvvəlcədən toplanan tullantı materiallarından təkrar istifadə etməklə funksional quş yuvalarının hazırlanması üçün bir araya gəliblər. Praktiki fəaliyyət ilə əhalinin marağına səbəb olan könüllülər aksiyaya qoşulan iştirakçılara müxtəlif növ tullantı materiallarından fərqli quş yuvalarının hazırlanması prosesini əyani nümayiş etdirib, tullantıların təkrar istifadəsi yolu ilə azaldılmasının faydası haqqında maraqlı faktlar bölüşüblər. Quş yuvaları daha sonra quş və kiçik heyvanların qida və su ehtiyaclarını təmin etməklə İçərişəhərdəki parkın ərazisində quraşdırılıb.

COP29 könüllülərinin nəzəri bilik və praktiki fəaliyyətlərini birləşdirərək reallaşdırdıqları bu təşəbbüs mühüm iqlim məsələlərindən biri olan tullantıların idarə olunması və ətraf mühit, flora və faunanın mühafizəsi arasındakı əlaqənin diqqətə çatdırılması, tullantıların məsuliyyətli idarəedilməsi kimi ekoloji dayanıqlı vərdişlərin gündəlik həyatda tətbiqinə ictimai diqqətin cəlb edilməsi, eləcə də kollektiv səylərin əvəzsiz rolunun bir daha vurğulanmasına xidmət edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Teatr xadimlərinin sənət hesabatı

**Azərbaycan Teatr Xadimləri İttifaqı yarandığı ilk günlərdən bir məqsədə – milli teatr sənətimizin inkişafına xidmət göstərib. Burada yaranan ənənələr bu gün də layiqincə davam etdirilir.**

Ötən əsrin 50-ci illərindən etibarən formalaşan bu qurum həm ölkə daxilində məhsuldar çalışıb, həm də xaricdə Azərbaycanı yüksək səviyyədə təmsil edib.

Mənim bu təşkilatla tanışlığım 1971-ci ildən – Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə (SSRİ Xalq artisti Mehdi Məmmədovun sinfinə) qəbul olunduğum vaxtdan başlanıb. Mehdi Məmmədov cəmiyyətin sədri idi. Sənət dərslərimiz Teatr Cəmiyyəti adlanan bu binada keçirdi, sözlü etüdləri, tamaşalarımızı isə böyük səhnədə göstərirdik. Sonra mən Sumqayıt teatrının bədii rəhbəri və direktoru işləyəndə Xalq artisti Həsənağa Turabov Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti, Azər Paşa Nemətov sədr, Bala Qasımov, Qəzənfər Topçiyev, Lyudmila Duxovnaya, Yaşar Nuriyev, Kamal Aslanov və mən katib seçildik. Azərbaycanın bölgələrində olan bütün teatrlarını burada tamaşalar oynamağa dəvət edirdik. Klassik və mono tamaşa festivalları və hətta beynəlxalq səviyyəli festivallar da keçirdik. "Qızıl Dərviş" və başqa mükafatları təsis elədik. Həmin illərdə Teatr Xadimlər İttifaqı bütün yaradıcı heyətlər üçün doğma, əziz bir ünvan oldu. Müqtədir aktyorlardan tutmuş, müasirlərə qədər üzdə olan bütün sənətkarların yubileylərini təntənəli səviyyədə keçirirdik.

Həsənağa Turabov haqq dünyasına qovuşandan sonra təşkilata Xalq artisti Azər Paşa Nemətov rəhbərlik elədi. O, öz ətrafına teatr sənətini yaxşı bilən insanları toplamışdı. Elə Xalq artisti, Dövlət Mükafatı laureatı, Prezidentin fərdi təqaüdçüsü Hacı İsmayılovun yaradıcılıq işləri üzrə 1-ci müavin seçilməsi bunun əyani sübutudur. Rəhbərliyin təşkilatçılıq qabiliyyəti, sənət yanğısı yaradıcı insanları Teatr Xadimlər İttifaqına daha yaxın etdi.

Bu yazımda Teatr Xadimləri İttifaqının zəngin və çoxşaxəli fəaliyyətinin son 5 ili barədə danışmaq istəyirəm. İlk olaraq xatırladım ki, 2019-cu ildə Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı və Akademik Milli Dram Teatrının təşkilatçılığı ilə Milli Dram Teatrına Dövlət statusu verilməsinin 100 illiyi münasibətilə tədbir böyük tarixi hadisə oldu. Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirləri tamaşaçılar maraqla qarşıladılar. "2+1" Üçüncü Eksperimental Teatr Festivalı, "Milli-mənəvi dəyərlərimizi gələcəyimiz naminə qoruyaq" adlı layihə çərçivəsində "Ocaq" qısametrajlı filminin təqdimatı, teatrşünas-alim Məmmədşah Atayevin xatirə gecəsi indi də yaddaşlardadır.

Sonrakı illərdə Səməndər Rzayevin və Ələbbas Qədirovun 75, Yaşar Nurinin 70 illik yubileyləri, koronavirus pandemiyası zamanı bu kütləvi xəstəliklə mübarizədə fəal iştirak, hərbçilərimizin 44 günlük Vətən müharibəsində qələbəyə ruhlandırılması, Yardım fonduna vəsait köçürülməsi, Arif Quliyevə və Cənnət Səlimovaya "Qızılgül" mükafatının təqdim olunması, Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş "Sənsiz" bədii qiraət müsabiqəsi, "Mədəniyyətimiz – Tariximiz" silsiləsindən Azərbaycan mədəniyyətinin görkəmli simalarından biri Əbdürrəhim bəy Haqverdiyevə həsr olunmuş tədbir, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının 90 illik yubileyi, Vətən müharibəsində tarixi qələbəyə həsr olunmuş "Qalib olan Azərbaycan" festivalı və s. yaddaşlara həkk olunub. MDB, Baltikyanı ölkələr və Gürcüstan gənclərinin IV Teatr Forumunda İttifaqın təşkilatçılığı ilə Azərbaycan gənclərinin iştirakı, Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Hünərim bir asimandır" adlı tədbir və tamaşa da hər kəsə unudulmaz təsir bağışlayıb.

Mən hər zaman Teatr Xadimləri İttifaqının tədbirlərini maraqla izləmişəm. 2022-ci ildə gənc teatr sənətçiləri ilə görüş, İttifaqda fəaliyyət göstərən yaradıcılıq laboratoriyalarının "Baxış-2" festivalı, 10 mart Milli Teatr Günü münasibəti ilə təntənəli tədbir və mükafatlandırma, Xalq artistləri İbrahim İsfahanlının, Məbud Məhərrəmovun, Vaqif Əsədovun, Əməkdar artistlər Əbülfət Salahovun, Rəhman Rəhmanovun, Füzuli Hüseynovun, rejissor Namiq Ağayevin yubileyləri, Xurşidbanu Natəvanın 190 illik yubileyinə həsr olunan "Cənnətim Qarabağ" adlı bədii qiraət müsabiqəsi, "Sərhədsiz Teatr" layihəsi çərçivəsində Mingəçevir, Gəncə Dövlət Dram teatrlarının və Gəncə Dövlət Kukla Teatrının yaradıcı heyəti ilə görüş bu qəbildəndir. Bakı Bələdiyyə Teatrının və Qax Dövlət Kukla Teatrının yubileyləri, "Zəfər sədası" bədii qiraət müsabiqəsi, Azərbaycan Teatr Xadimləri İttifaqının 125 illiyinə həsr olunmuş "Milli klassika" festivalı da maraqlı idi. Bütün bunlar bir daha təsdiq etdi ki, Teatr Xadimləri İttifaqı, sözün həqiqi mənasında, bu sənət sahəsini yüksək səviyyədə təbliğ edən təşkilatdır.

Ötən il sədr Azər Paşa Nemətovun xəstələnməsi və aprel ayında haqq dünyasına qovuşması hamımızı sarsıtdı. Sonra onun vəzifə səlahiyyətlərini Xalq artisti Hacı İsmayılov davam etdirməyə başladı. Orijinal düşüncəsi, yüksək təşkilatçılıq məharəti və bütün teatr ictimaiyyətinin sevimlisi olması ona işləri daha da canlandırmaqda kömək etdi. Bu il Hacı İsmayılovun rəhbərliyi ilə xeyli yaddaqalan tədbirlər keçirilib. 100 yaşı tamam olan Xalq artisti Tofiq Kazımovun qəbirüstü zi-



yarəti, Xalq artisti Əli Nurun 75, Rafiq Əzimovun 85, Heydər Anatollunun, aktrisa Gülcahan Salamovanın 60, gənc aktrisa Xalidə Əliməmmədovanın 50 illik yubileyləri, İttifaqda fəaliyyət göstərən laboratoriyaların "Baxış- 3" festivalı, 10 mart Milli Teatr Günü münasibəti ilə təntənəli tədbir və mükafatlandırma mərasimi, 3-5 may tarixlərində ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Sən elə bir zirvəsən…" bədii qiraət müsabiqəsi qeyd oluna bilər.

Hacı İsmayılovun ideya rəhbəri olduğu "Qonaq Teatr" layihəsi elə ilk tədbirindən çox maraqla qarşılanıb. Bu tədbirlər Azərbaycan Teatr Xadimləri İttifaqı, Mədəniyyət Nazirliyi ilə birlikdə keçirilir.

Mayın sonunda Azərbaycan Teatr Xadimləri İttifaqı sədrinin vəzifə səlahiyyətlərini icra edən Xalq artisti Hacı İsmayılov Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının iclasına və digər tədbirlərə qatılmaq üçün Moskvaya işgüzar səfərə gedib və oradakı çıxışları maraqla qarşılanıb, iştirakçıları Azərbaycana qastrol səfərlərinə gəlməyə həvəsləndirib. Azərbaycan Teatr Xadimləri İttifaqının maliyyə dəstəyilə ötən ay gənc teatr sənətçiləri Mehman Fətullayev və Anar Məmmədov Moskvada Beynəlxalq Çexov Festivalı çərçivəsində MDB, Baltikyanı ölkələr və Gürcüstanın gənc teatr rejissorlarının laboratoriyasında iştirak ediblər. Görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin 110 illiyi münasibəti ilə Şuşa Dövlət Musiqili-Dram Teatrının "Boy çiçəyi", iyunda Bakı Bələdiyyə Teatrının "Xan qızı" tamaşası son uğurlar kimi dəyərlidir.

Bəli, görünən budur ki, Azərbaycan Teatr Xadimləri İttifaqı Xalq artisti, Dövlət mükafatı laureatı, Prezidentin fərdi təqaüdçüsü Hacı İsmayılovun rəhbərliyi ilə böyük işlər görür.

**Ağalar İDRİSOĞLU,**
**Əməkdar incəsənət xadimi**

# Duyğuları coşduran Şuşa şeir məclisi

**Vaqif Poeziya Günlərinin iştirakçılarının təəssüratlarını yazmazdan öncə onlarla söhbətlərimizdə Şuşanın toponimikasına dair bəzi şairanə yanaşmaları xatırladım. Biri dedi:**

**Məkan tutdisə Vaqif, yox əcəb,**
**bu Şişə dağında,**
**Məqami ləli-gülrəngin**
**miyani-səngi-xaradır**

– söyləməklə şair məkanının çaxmaq daşının ortasında gülrəngli bir ləl olduğunu söyləyib. Bir başqası Qacara cavabında: "Məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daşın içərisində də salamat saxlayar", – dediyini yada saldı. Şuşa – müxtəlif yozumlarda "şüşə", "şiş" mənalarına gələrək,saflıq, aydınlıq, saflıq, zəriflik, ucalıq, qızıl-gümüş külçəsi, simli musiqi alətini ehtiva edir, deyən də oldu. Başqa fikirlər: Elə "Şüştər" muğamı da müəyyən mənada alicənablığa, sakit qürura, ucalığa aid ritmikadır. "Şuş" toponimi də var ki, hardasa mərkəz, müqəddəs məkan kimi anlaşılır. Sibirdə Yenisey hövzəsinin çaylarından biri Şuş adlanır. Bir sözlə, bütün izahların Şuşaya sevgidən yoğrulduğu göz qabağında idi...



Nəhayət, şairlərimizin poeziya bayramı ilə bağlı təəssüratlarını təqdim edirik.

**Vaqif Bəhmənli, Əməkdar mədəniyyət işçisi:**



– Mədəniyyət paytaxtımız Şuşada Qarabağ Zəfərimizdən sonra bərpa edilən və 4-cü dəfə keçirilən Vaqif Poeziya Günlərinin təəssüratları zəngindir. Elə Günlər çərçivəsində təşkil olunan "Sözün Vətəni – Qarabağ" müasir poeziya saatı, bir də sonda keçirilən "Vaqiflə səyahət" bədii-musiqili tamaşası nəyə desən, dəyərdi. Artıq Şuşada yaşayan soydaşlarımızın da tədbirlərə qatılması çox fərəhli idi. Əlbəttə, bu səfərin poetik təəssüratları da olacaq.

**Rafiq Yusifoğlu, filologiya elmləri doktoru, professor:**



– Bundan öncə doğma yurdum Qubadlıya səfər etmiş, orada möhtərəm Prezidentimizlə görüşüb şəkil də çəkdirmişdim. İnanın ki, bu gün də eyni qürur və fərəh hissləri keçirirəm. Hələ işğal dövründə mənim yazdıqlarımın əsasında "Bütün Azərbaycan əsgər olmalı" və "Qəm karvanı" adlı televiziya tamaşaları çəkilib. Böyük Qələbədən sonra isə "Vətən ətri", "Zəfər dastanı", "Şuşa yolu, zəfər yolu" adlı kitablarım çıxıb. Poeziya saatındakı çıxışımız zamanı səsləndirdiyimiz misralar isə hiss və həyəcanlarımın özünəməxsus ifadəsi oldu.

**Ramiz Qusarçaylı, AYB Quba bölməsinin sədri:**

– Böyük zəfərdən sonra yazdığım "Vətən" poemam paytaxt Bakıda və bölgələrdə dəfələrlə müzakirə olunub. Amma Şuşada çıxış edib şeir söyləmək adama bir ayrı zövq verir. Dostlarımın da buradakı çıxışlarını həyəcansız dinləyə bilmirdim. Vətənpərvərlik davamlı bir mövzudur. Kitabımın üz qabığında da qeyd etdiyim kimi, Vətən haqqında o qədər yazıblar, yazırlar və yazacaqlar ki! Vaqifin ruhu, şəhidlərimizin ruhu şad olsun!

**Xəyal Rza, AYB-nin Mətbuat Xidmətinin rəhbəri:**



– Bu səfərimdə uşaq yaddaşımdan boy göstərən, o vaxt Şuşaya gələrkən buz kimi suyunda ayaqlarımı dondurduğum həmin o Natəvan bulağını tanıdım... Qarabağ mövzusunda mənim ssenarimlə çəkilmiş "Maya" (2023) sənədli və "Allaha salam" bədii filmlərinin bəzi epizodları işğaldan azad olunmuş yerlərdə lentə alınıb. Bilirsiniz, hər dəfə Cıdır düzündə, İsa bulağında olmaq, Şuşada aparılan quruculuq işlərini görmək, şeir məclislərində iştirak etmək böyük xoşbəxtlikdir. Bu səfərdə məni məmnun edən bir də o oldu ki, yenə də Vaqif Poeziya Günlərinin təşkilati işlərini layiqincə yerinə yetirə bildik.

**Polad İbrahimoğlu, şair:**



– Təəssüratım zəngindir. Elə bu gün yazdığım bir şeirdə belə misralar var:

**Gəzib Şuşanı gəlirəm,**
**Dünyanın özü məndədir.**
**Cıdır düzündə ağladım,**
**Sel daşan gözü məndədir.**

Burada keçirilən bütün tədbirlər cəlbedici idi. Əslən Qarabağdan olan Seyran Səxavətin, Elçin İsgəndərzadənin, Vaqif Bəhmənlinin xatirələri, söhbətləri ürəyimdə əks-səda verdi. Qayıdanbaş Xankəndidən, Xocalıdan keçməyimiz də ürəyimcə oldu. Bir sözlə, Vaqif Poeziya Günlərinin iştirakçısı olduğumla fəxr edirəm.

İnanırıq ki, artıq tarixə dönmüş ədəbiyyat bayramının təəssüratları gözəl şeirlərə, poemalara, hekayələrə... dönəcək.

**Əli NƏCƏFXANLI**
**XQ**

# Elmi irsimiz Almaniya kitabxanasında

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) şöbə müdiri, tarix elmləri doktoru, dosent Zemfira Hacıyevanın rəhbərliyi ilə hazırlanan tədqiqat kitabları Almaniya kitabxanasının rəflərində yer alıb.**



Arxiv sənədləri ilə bağlı tədqiqatların Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universitetinin kitabxanasının kataloquna daxil edilməsi sayəsində Azərbaycanın müxtəlif dövrlərə və istiqamətlərə aid tarixi həqiqətləri barədə dünya elmi ictimaiyyəti məlumatlanacaq.

Kitabxanaya daxil edilən çap məhsullarının bir qismi AMEA-nın yaranma tarixi barədə monoqrafiyalardır. Bunlar əsasən mühafizə edilən nadir materialların toplandığı kitablardır. Kataloqda Manna, Midiya və Qafqaz Albaniyasında yaranan ilk yazı vərdişlərindən tutmuş tarixin müxtəlif dönəmlərində Azərbaycanın özünəməxsus elm ocaqlarının, Elmlər Akademiyasının çətin proseslərdən keçərək formalaşma dövrünə qədər olan mərhələlərindən danışılır.

"İrəvan xanlığının tarixi", "Azərbaycan Dövlət Muzeyi: Azərbaycanda elmin inkişaf tarixindən", "Qarabağ xanlığının tarixşünaslığı", "Təkrarlanan tarix və təkrarlanan şərhlər", "Azərbaycan alimləri İkinci Dünya müharibəsi illərində: 1941–1945", "Azərbaycan xalqının mənəvi həyatı və onun maddi mədəniyyətin yaradılmasındakı rolu" və digər monoqrafiyaları artıq Halle-Vittenberq Universitetinin kitabxanasının nəşrləri sırasındadır.

Qafqaz canişini Aleksey Yermolovun sifarişi ilə 1823-cü ildə hazırlanan "Qarabağ əyalətinin təsviri" ("Описание Карабахской провинции") adlı rusdilli çap məhsulunda Qarabağ əhalisinin etnik tərkibi, müxtəlif kəndlər və Qarabağda xan nəslinə mənsub olan köçəri tayfalardan xəzinəyə daxil olan gəlirlərlə bağlı cədvəl məlumatları öz əksini tapıb.

**XQ**

# Yepiskopun Lənkəran görüşləri



**Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksiy, Bakı Yeparxiyasının nəşriyyat şöbəsinin rəhbəri protoiyerey Aleksandr Astaşkin və Bakı Yeparxiyasının İctimai təşkilatlarla əlaqələr üzrə şöbəsinin rəhbəri Mefodiy Əfəndiyev Lənkəran şəhərinə səfər ediblər.**

İcra hakimiyyətinin başçısı Taleh Qaraşov qonaqlarla görüş zamanı bildirib ki, Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun, həmrəylik, tolerantlıq və qarşılıqlı anlaşma kimi bəşəri dəyərlərin inkişafına, bütün xalqların, dini icmaların birgə sülh və əmin-amanlıqla yaşamasına şəraitin yaradıldığı ölkədir. Lənkəranda da rus icmasının fəaliyyəti üçün nümunəvi şərait yaradılıb. Burada milli, dini, irqi və digər sosial mənşəyindən asılı olmayaraq, bütün insanlar bərabər, mehriban şəraitdə yaşayırlar.

Yepiskop Aleksiy yenicə fəaliyyətə başladığı Azərbaycanla bağlı yüksək təəssüratda olduğunu vurğulayıb, ölkəmizdə dinlərarası dialoqun və ənənəvi dəyərlərin möhkəmləndirilməsi istiqamətində konstruktiv əməkdaşlığa hazır olduqlarını bildirib.

Səfər çərçivəsində qonaqlar Lənkəran şəhərində Tanrıdoğuranın Himayədarlıq kilsəsini, "Cümə" məscidini, Tarix-Diyarşünaslıq Muzeyini ziyarət edib, İstisu qəsəbəsindəki çay plantasiyası və Xanbulançay su anbarı ilə tanış olublar.

**XQ**

# Yeni disk: "Oxuyur Qərbi Azərbaycan aşıqları"

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin builki qrant müsabiqəsinin qalibi olan Azərbaycan Aşıqlar Birliyində "Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı" adlı layihə gerçəkləşdirilir.**

Birliyin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun rəhbərliyi ilə Qərbi Azərbaycandan didərgin salınmış aşıqlarımızın musiqi repertuarından seçmələri əhstə edən audiodisk hazırlanır. Bu barədə məlumat verən qurum sədrinin müavini, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli bildirib ki, ifaları audiodiskə daxil edilən aşıqların hər birinin ifası ayrılıqda dinlənilərək ustad sənətkarlar tərəfindən dəyərləndirilib. Qərbi Azərbaycanda yaradılmış və bu bölgənin aşıq mühitləri ilə bağlı olan havalara, mətn seçimində isə Vətən və vətənpərvərlik, Qərbi Azərbaycandakı yurd yerlərimizlə bağlı şeirlərə üstünlük verilib, Qərbi Azərbaycanın Göyçə, İrəvan, Zəngəzər, Dərələyəz, Ağbaba, Loru-Pəmbək kimi bütün aşıq mühitlərinin əhatə olunmasına xüsusi diqqət yetirilib.

Audioskdə Əməkdar mədəniyyət işçiləri Fətulla Göyçəli və Bəhmən Göyçəli, eləcə də Faxfur Ağbabalı, Ələddin Musa oğlu, Xanlar Xəlilov, İmran Xəlilov, İxtiyar Qocayev, Vaqif İbrahimov kimi ustad aşıqlarla yanaşı, Rəfiqə Göyçəli, Nərmin Salahova, Familə Göyçəli, Elməddin Bayramlı, İmralı Fikrətoğlu, Ləman Mirzəyeva, Ayaz Əzizoğlu və digər gənc istedadların ifaları da yer alacaq.

Layihənin avqustun sonunda başa çatdırılması nəzərdə tutulur.

***T.RÜSTƏMLİ***
***XQ***

Paris Olimpiadasına 4 gün qalıb

# Basketbolçularımızdan da Olimpiya medalları gözləyirik!

**Azərbaycan müstəqillik dövründən bəri ilk dəfə Yay Olimpiya Oyunlarında komanda yarışlarında təmsil olunacaq. Basketbolun 3X3 növü üzrə qadınlardan ibarət millimiz mötəbər yarışda iştirak edəcək. Dünyanın ən güclü 8 komandasının qatılacağı turnirdə komandamızdan hansı nəticəni gözləyirik? Bəs bu uğur basketbolumuza nə verəcək?**



Azərbaycanda basketbolun inkişafı istiqamətində son 2 ildə görülən işlərə nəzər salsaq, bu idman növündə nailiyyətlərin əldə edilməsi gözlənilən idi. Olimpiya komandamız hələ ötən il Astara, Bakı və Şuşada keçirilən yarışlarda inamla çıxış edərək reytinq xallarını yığmağa nail olmuşdu. Yığmamızın Honkonqda keçirilən 1-ci təsnifat turnirində olimpiadaya yeganə vəsiqə uğrunda B qrupunda parlaq Çili və Monqolustanı məğlub etməsi ümidləri xeyli artırmışdı. Qrupun son oyununda Niderlanda uduzsa da, yarımfinala yüksələn xanımlarımız bu mərhələdə inamlı oyunları sayəsində Macarıstana, finalda isə Polşaya qalib gəlməsi Paris Olimpiadasında iştirak üçün "yaşıl işıq" yandırdı.

Paris Olimpiadası ərəfəsində Azərbaycan idmanı tarixində komanda növləri arasında Olimpiya Oyunlarına ilk dəfə lisenziya əldə edən qadınların 3x3 basketbol millisi Paris Olimpiadası ərəfəsində Avropa Kubokunun final mərhələsinə vəsiqənin əldə edilməsi komandamızın güclü potensialının daha bir göstərdi.

Azərbaycanın qadınlardan ibarət 3x3 basketbol millisinin üzvü Dina Ulyanova açıqlamasında əldə edilən nəticənin Azərbaycan basketbolu üçün böyük əhəmiyyət daşıdığını bildirib:

–Qızlarımız yüksək səviyyədə basketbol oynadıqlarını bir daha sübut ediblər. Onlar Paris Yay Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil etmək üçün səylərini daha da artıracaqlar.

Qadınlardan ibarət 3x3 basketbol millisinin baş məşqçisi Ratomir Deliç də basketbolçuların qələbəyə kökləndiklərini deyib:

–Olimpiya Oyunlarında qələbə üçün meydana çıxacağıq. Komandamız 8 ən güclü yığmadan biridir. İmkanlarımızdan tam istifadə edib, oyunlarda mübarizə aparacağıq. Bütün idmançıların arzusudur ki, Olimpiya Oyunlarında iştirak edib, yaxşı nəticə qazansınlar. Məğlubedilməz komanda isə yoxdur.

Azərbaycan Basketbol Federasiyasının mətbuat katibi Sənan Əliyev qəzetimizə açıqlamasında basketbolçuların Serbiyanın Novi-Sad şəhərində hazırlıqlarını davam etdirdiklərini bildirdi:

–Novi-Sad dünyada 3X3 basketbolu üzrə mərkəz hesab olunur. Komandanın serbiyalı baş məşqçisi Ratomir Deliç və digər mütəxəssislər qızlarımıza gündə 2 dəfə olaraq intensiv məşqlər keçirlər. Millimizin heyətində mübarizə aparacaq Mersedes Volker, Aleksandra Mollenhauer, Dina Ulyanova və Tiffani Heys yaxşı formadadırlar. Hazırlıq iyulun sonunadək davam edəcək. Həm kişilərdə, həm də qadınlarda favorit ABŞ komandasıdır. İlk dəfə iştirak etdiyimiz komanda yarışında medal qazansaq, sevinərik. Amma bu ilkdir, qızlarımıza böyük bir təcrübə olacaq.

"Paris-2024"də qadın basketbolçuların yarışı iyulun 30-da başlayacaq, avqustun 5-dək davam edəcək. Komandamız startda İspaniya yığması ilə qarşılaşacaq.

Rəqabət olimpiadada çox güclüdür. Amma buna baxmayaraq, qızlarımız da sonacan mübarizə aparmaq əzmində olduqlarını ötən yarışlarda nümayiş etdiriblər. Digər tərəfdən basketbolçularımızın olimpiadada mübarizəsi ilə Azərbaycanın qadın basketbolunda yeni bir dövr başlayır. Heç şübhə yoxdur ki, bu, ölkəmizdə basketbolun kütləviləşməsinə, daha da inkişafına güclü təkan verəcək.

Olimpiadaların çox populyar və sevilən basketbol yarışlarını azarkeşlərimiz ilk dəfə sonsuz maraq və böyük həyəcanla izləyəcəklər. Ümid edirik ki, komandamız Azərbaycanı layiqincə təmsil edib, bayrağımızı yüksəklərdə dalğalandıracaq!

***Leyla QURBANOVA***
***XQ***

# Şoltsun Serbiyaya "litium" səfəri

## *Berlin Pekindən asılı olmaq istəmir*

**Almaniya kansleri Olaf Şolts cümə günü Serbiyaya səfər edib. Səfərin əsas məqamı Belqrad ilə Avropa Birliyi arasında litium yataqlarının işlənməsinə dair sazişin imzalanması olub. Cənab Şolts sənədin imzalanmasında iştirak edib və o, sazişin bağlanmasını alqışlayıb. Kansler bildirib ki, bu, Avropaya öz müstəqilliyini qoruyub saxlamağa kömək edəcək, akkumulyatorlar və elektromobillərin istehsalını artırmaq imkanlarını təmin edəcək. Ən əsası, Berlinin Çin litiumundan asılılığını xeyli azaldacaq.**



Almaniya kansleri Belqradda bir sıra mühüm ikitərəfli və beynəlxalq məsələləri müzakirə edib. Heç kimə sirr deyil ki, o, Qərbi Balkanların Aİ-yə daxil olmasına böyük maraq göstərir və Serbiya onun səylərinin daimi hədəfindədir. Cənab Şolts Serbiya prezidenti Aleksandar Vuçiçin də Aİ-nin Rusiyaya qarşı ümumi sanksiya rejiminə qoşulmasını istəyir. Kansler dəfələrlə deyib ki, Belqradın anti-Rusiya sanksiyalarına qoşulması onun vahid Avropaya doğru irəliləməsini əhəmiyyətli dərəcədə asanlaşdıracaq. Alman tərəfinin nöqteyi-nəzərindən Moskva ilə Belqrad arasında münasibətlərdə heç bir tarixi qardaşlıq hissləri və ənənələri bu gün bu məsələdə mühüm rol oynaya bilməz. Bununla belə, hələlik cənab Vuçiç anti-Rusiya sanksiyalara qoşulmaq məsələsində status-kvonu qoruyub saxlayır. Buna görə də Belqrad Rusiyadan endirimli qiymətə qaz ala bilir.

Ancaq Serbiya da Avropa perspektivlərini tam itirmək istəmir. Avropa İttifaqı ilə litium mədənlərinin hasilatında Brüssel ilə işləməyə razılıq verməsini buna sübut kimi göstərmək olar. Əvvəllər litium yataqlarında Çin şirkələrinin fəaliyyət göstərəcəyi bildirilirdi. Lakin sonradan Belqrad bu məsələdə üstünlüyü Avropaya verdi. Serbiya prezidenti Aleksandar Vuçiç əvvəllər Çin avtomobil istehsalçılarının serb litiumunu almaqda maraqlı olduqlarını, ancaq Belqradın Aİ ilə əlaqələri gücləndirmək və Avropanı litiumla təmin etmək istədiyini bildirib. Serbiya prezidenti "Handelsblatt" qəzetinə müsahibəsində vurğulayıb ki, Belqrad "Mercedes-Benz", "Volkswagen" və Hollandiyanın "Stellantis" kimi avtomobil şirkətlərinə üstünlük verərək Çinə litium satmamaq barədə öhdəlik götürüb.

Eyni zamanda, yataqların mümkün işlənməsi əvvəllər Serbiyada ekoloji etirazlara səbəb olmuşdu. İki il əvvəl Serbiyanın əvvəlki hökuməti kütləvi etirazlardan sonra layihəni dayandırmış və Britaniya-Avstraliya mədən nəhəngi olan "Rio Tinto"ya verilmiş lisenziyaları ləğv etmişdi. O vaxt Serbiya ekoloji qrupları və vətəndaş fəalları mədən hasilatına qarşı çıxmışdılar. İndi Serbiya prezidenti yerli əhalini əmin edir ki, hakimiyyət vətəndaşların tələblərini dinləyir və istehsalı "şəffaf şəkildə" həyata keçirəcək: "Serbiya ətraf mühitin qorunmasında və Cadar və Radadakı vətəndaşlarımızın suyunun və havasının təmiz olmasında israr edəcək".

Xatırladaq ki, Aİ-nin yaşıl keçidi üçün lazım olan batareyaların strateji əhəmiyyətli komponenti olan litium Cadar mədənində hasil ediləcək. Avropa İttifaqının iqlim planına əsasən, 2035-ci ilə qədər daxiliyanma mühərrikli avtomobillərin satışının mərhələli şəkildə dayandırılması gözlənilir. Elektrikli avtomobillərin daxili yanma mühərrikli avtomobillərə alternativ olması nəzərdə tutulur. Litium elektrik avtomobilləri və istənilən müasir texnologiya üçün akkumulyatorların istehsalında əsas komponentdir. Hazırda güman edilir ki, Serbiyanın şimal-qərbində yataqların işlənilməsi Avropa İttifaqında tələbatın 17 faizini ödəyə biləcək. Bu miqdarda litium ildə 1,1 milyon elektrik avtomobili istehsal etmək üçün kifayətdir.

Almaniya kansleri strateji sazişin imzalanmasından sonra bildirib ki, avropalılara ümumi Avropa ruhu, bir istiqamətdə hərəkət lazımdır: "Bu gün biz Avropa sənayesinin gələcəyini müəyyən edən çox mühüm sənədlər imzaladıq. Bu, xüsusilə elektrikli avtomobillər və təkrar doldurulan batareyalar istehsal etmək üçün lazım olan litum hasilatına aiddir". Serbiya da belə bir sazişin imzalanmasından məmnundur. Cənab Vuçiç litium hasilatını "Serbiya üçün bir fürsət" adlandırır və serb iqtisadçıları bildirirlər ki, litium yatağının işlənməsi barədə müqavilənin imzalanması ölkəyə 6 milyard avro investisiya qoyulacağını və 20 min yeni iş yerinin yaradılacağını vəd edir. Bundan başqa, cənab Vuçiç bildirib ki, litiumun bir hissəsi Almaniyaya tədarük ediləcək, qalan hissəsi isə Serbiyanın özündə katalizator və litium batareyalarının istehsalında istifadə olunacaq.

Serbiya ilə belə bir müqavilənin imzalanması Aİ üçün yaxşı xəbərdir. Ona görə ki, Avropanın 2030-cu ilə qədər litium-ion batareyaları və yanacaq elementləri baxımından Çindən asılı vəziyyətə düşə biləcəyi bildirilirdi. Belqrad ilə belə bir sazişin imzalanması Aİ-nin litium asılılığını xeyli azaldacaq.

**S.ELAY**
**XQ**

**Emmanuel Makron hökumətinin uğursuzluq zolağı davam etməkdədir. Afrika və Asiyadan biabırcasına qovulan Fransa hakimiyyəti başına gələnlərdən nəticə çıxarmaq əvəzinə, əksinə, daha da azğınlaşıb və hirsini tökməyə ünvan axtarır. Hazırda rəsmi Paris Azərbaycanla Ermənistan arasında sülh prosesinə mane olan, separatçıları dəstək verən "katalizator" rolunda çıxış edir. Cənubi Qafqazda özünün korporativ maraqlarını güdən, bunun üçün ermənilərdən "maşa" kimi istifadə edən Yelisey sarayındakıların başı yenə qalmaqaldadır. Makron iqtidarının "qara zolağı" təkcə xarici siyasət müstəvisində deyil, həm də daxildə davam edir. Söhbət Olimpiya Oyunlarından gedir.**

# Olimpiadanın "soyuq duşu"

## *Paris Oyunlarının məşəli Makronun "tüstülənən əski"sini də alovlandıra bilər*

İyulun 26-da bu ölkənin paytaxtında planetin ən qədim və ən nüfuzlu idman yarışlarına start veriləcək. Üç ay bundan əvvəl Olimpiya məşəli Afinadan Parisə gətirilib. Bu zaman məşəl Fransanın 450-dən çox şəhər və qəsəbəsindən keçib, onun ətrafında təhlükəsizlik qüvvələrinin 200 əməkdaşı, o cümlədən antiterror SWAT komandası və pilotsuz uçuş aparatları ilə mübarizə aparan əməliyyatçılar yerləşdirilib. Oyunların açılış mərasimi 5 gündən sonra Sena çayında baş tutmalıdır.



Amma bu məsələnin bir "əmma"sı var. Bu da ondan ibarətdir ki, sahə mütəxəssisləri Sena çayının suyunun ekoloji cəhətdən çirkli olduğuna görə yarışların keçirilməsi üçün məqbul sayılmadığını açıqlamışdılar. Onların rəyi ilə razılaşmayan paytaxtın meri Anna İdalqo bunun əksini sübut etməkdən ötrü şəxsən çayda çiməcəyini bildirmişdi. Bu həftənin əvvəlində məmurlar, jurnalistlər və fotoqraflardan ibarət izdiham şəhər merinin iki dəfə təxirə salınmış vədini yerinə yetirməsini izləmək üçün Parisin mərkəzindəki "Quai de Selestin"-ə toplaşmışdı. Amma Senanın suyunun "canlı testdən" keçirilməsi aksiyası yenə baş tutmayıb.

Hakimiyyəti siyasi dalana dirənmiş Emmanuel Makron Olimpiya məşəlinin həm də onun tüstülənmiş əskisini yandıra biləcəyindən bərk ehtiyat edir. Parisdə Olimpiya ehtirasları özünün pik həddinə çatıb. Hökumət oyunların gedişində paytaxtda baş verə biləcək xoşagəlməz hadisələri önləməkdən ötrü miqrantlara qarşı total hücuma keçib. İndi Makron nəinki miqrantların, hətta kasıbların belə paytaxtda yaşamasına imkan vermək istəmir. Bu kateqoriyadan olanlar Parisin küçələrində zorla avtobuslara doldurularaq paytaxtdan kənara, daha uzaq şəhər və qəsəbələrə daşınırlar. Fransanın əyalət şəhərlərinin merləri hökuməti Olimpiya Oyunları ərəfəsində paytaxtı miqrantlardan "təmizləməkdə" günahlandırırlar. Onlar bildirirlər ki, hakimiyyətin bu siyasəti şəhərlərə miqrant axınının daha da güclənməsinə gətirib çıxaracaq. Misal üçün, Orlean şəhərinin meri Serj Qruar bəyan edib ki, hökumət 100 min insanın yaşadığı şəhərə, heç bir xəbərdarlıq etmədən, 500 miqrant köçürüb. "Hər üç həftədən bir Parisdən Orleana 35-50 nəfər gəlir", – deyən Oruar bütün bunların Olimpiya Oyunları ərəfəsində paytaxtda, guya, "qayda-qanun" yaradılmasına yönəldiyini açıqlayıb. Mer sözlərinə onu da əlavə edib ki, yeni gələn hər miqrant üç həftə ərzində dövlət hesabına yaşayış yeri, qida ilə təmin olunmalıdır. Bəs, üç həftədən sonra onların taleyi necə olacaq? Bu sualın cavabını Serj Oruarın özü də bilmir.

***

Bu da Emmanuel Makron hakimiyyətinin insanlara müstəmləkəçi gözü ilə yanaşmasının növbəti təzahürü. Ölkə vətəndaşlarını ağlara və qaralara bölən, bura pənah gətirmiş insanlara qarşı alçaldıcı, təhqiramiz hərəkətlərə yol verən hökumətə şəhərlərin merləri kəskin etirazlarını bildirirlər. Bir müddət əvvəl Lavora şəhərinin meri açıq məktub dərc edərək, miqrantların köçürülməsi siyasətini "məsuliyyətsiz" və "təhlükəli" addım adlandırmışdı. Sağlar və radikal qüvvələr də Fransa liderinin planını sərt tənqidə məruz qoyurlar. Onlar Emmanuel Makronu icmaları yoxsullaşdırmağa çalışmaqda, onları cinayətə sürükləməkdə ittiham edirlər. Beləliklə, Makron Fransasını nüfuzlu beynəlxalq yarış ərəfəsində ciddi sınaqlar gözləyir. Fransanın Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutu (INSEE) "Paris-2024" Yay Olimpiya Oyunlarının açılışına iki həftə qalmış yarışın ölkəyə mümkün iqtisadi təsirini araşdırıb. İnstitutun gəldiyi qənaətə görə, televiziya yayım hüquqları, turizm və istehlak Olimpiya Oyunlarını ölkə üçün sərfəli biznesə çevirir. Ancaq gözlənilən kütləvi etirazların, tətillərin ölkə iqtisadiyyatına mənfi təsirləri də ola bilər. Artıq Paris hava limanları (ADP) həmkarlar ittifaqı işçilər üçün bonuslar tələb edərək tətilə çağırış vərəqələri paylamağa başlayıb. Təhlükəsizlik məsələsi də ciddi narahatlıq doğurur. Sosial araşdırmaların nəticəsində məlum olub ki, Olimpiadadan sonra ölkədə siyasi qeyri-sabitlik mühiti daha da gərginləşə bilər. Qeyri-müəyyən perspektivlə üz-üzə qalan fransızlar xərclərində daha ehtiyatlı olmağa məcburdurlar. Yerli siyasi ekspertlərin bir qismi Olimpiya Oyunları zamanı Parisdə qanlı təxribatların baş verə biləcəyini də istisna etmir.

***

"Olimpiada Makron üçün növbəti alçaldıcı aksiya olacaq". Britaniyanın "The Daily Telegraph" qəzeti bu başlıq altında iyulun 26-da Parisdə başlayacaq Olimpiya Oyunları ilə bağlı məqalə dərc edib. Nəşr yazır ki, üzgüçülük yarışı üçün Sena çayının təmizliyini sübut etməyə çalışanlar kabinetin digər üzvləri ilə birlikdə kürsülərini tezliklə tərk edəcəklər. Oyunlardan sonra Paris meri Anna İdalqo ilə bağlı da "vida musiqisi"nin səslənəcəyini bildirən qəzet onun antaqonizm üzərində "inkişaf etdiyini" diqqətə çatdırır. Nazir Oudea-Kastera İdalqo haqqında "Le Monde" qəzetinə bunları söyləyib: "O, paxıldır və qadınlara qarşı kifayət qədər qəliz münasibəti var. Nazir təyin olunandan sonra, o, məni mühakimə etməyə çalışdı. Mənə yuxarıdan aşağı baxmağa, ayağımdan çəkməyə başladı. Amma mənim səbrimi, bütün bunlara dözə biləcəyimi də gördü".

Beləliklə, Paris meri İdalqonun Sena çayında 10 dəqiqəlik üzməsinin, demək olar ki, məcburi şərtə çevrildiyini iddia etmək olar. İntəhası, çayın suyunun keyfiyyəti ilə bağlı sual hələ də açıq qalmaqdadır.

Senada çirklənmənin səviyyəsini izləyən onlayn araşdırma nəşri "Médiapart"ın açıqlamasına görə, həm nazir, həm də bələdiyyə sədri daha az yağıntı sayəsində çayda çirklənmənin səviyyəsinin bir qədər aşağı düşə biləcəyi təqdirdə şanslıdırlar. Ardıcıl üç gün ərzində çayın dörd müxtəlif hissəsindən götürülmüş nümunələr həyəcan siqnalı çalmağa kifayət edir. Bu, baş nazir Qabriel Attalın istefasını qəbul etməli olan Emmanuel Makron üçün heç də yaxşı xəbər deyil. Prezident ümid edirdi ki, onun iqtidar partiyası növbədənkənar parlament seçkilərdən sonra mövqeyini qoruyub saxlaya biləcək. Amma indi çıxılmaz vəziyyətə düşən Makron qarşıdan gələn Olimpiadaya nəzarət etmək üçün daha bir neçə həftə baş nazir postunda qalması üçün Attala yalvarmalı olub.

***

Parisdəki mağaza və otellərin sahibləri isə həmişəkindən daha çox müştəri itirdiklərindən şikayətlənirlər. Bu, ilk növbədə, terror təhlükəsi ilə bağlı təhlükəsizlik xidmətləri tərəfindən "şübhəli əlaqələr" üçün lazımi işləri yerinə yetirməyə icazə verilməyən minlərlə işçinin ixtisara salınması ilə izah olunur. "Invictus France" partiyasından olan radikal solçu deputatların fikrincə, bu, "varlılar üçün Olimpiada" olacaq. Yaranmış durum mədəni irs, idman ənənəsi nöqteyi-nəzərindən olduqca dəhşətli görünür.

Əslində, bütün dünyanın izləyəcəyi Olimpiada Makronun "ulduz saatı" ola bilərdi. Amma bunun əvəzinə onu yerli medianın dəhşətli başlıqları və parislilərin dilə gətirdikləri çoxsaylı narahatlıqlar müşayiət edir. Hər şeydən göründüyü kimi, Emmaneul Makron qızmar Olimpiya Oyunları ərəfəsində "soyuq duşu" qəbul etmək məcburiyyətindədir.

**İmran BƏDİRXANLI**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 152 (30556) 21 iyul 2024-cü il, bazar


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


İDMAN

## Bir paralimpiyaçımız da “Paris-2024”də

**Azərbaycanı Paris Yay Paralimpiya Oyunlarında təmsil edəcək daha bir idmançı müəyyənləşib.**



Pauerliftinq üzrə milli komandamızın üzvü Ceyhun Mahmudov (54 kq) “Paris-2024”də iştirak hüququ qazanıb.

MPK tərəfindən göndərilən sorğu əsasında 2023-cü ildə Dünya Kubokunun qalibi olmuş idmançıya Beynəlxalq Paralimpiya Komitəsindən paralimpiadada iştirak hüququ (“bipartite”) verilib.

## Beynəlxalq turnirdə gümüş medal

**Suya tullanma üzrə Azərbaycan idmançısı beynəlxalq turnirdə uğurla çıxış edib.**



Bolqarıstanın Varna şəhərində keçirilən “Üçüncü Balkan Gənclər Çempionatı”nda təmsilçimiz Məhəmməd Hüseynov E qrupunda 2-ci yeri tutaraq gümüş medala layiq görülüb.

Yarışa 10 ölkədən 110 idmançı qatılıb.

## 22 iyul: “Sumqayıt” – “Fehervar”

**UEFA Konfrans Liqasının II təsnifat mərhələsində baş tutacaq “Sumqayıt” – “Fehervar” matçına 3300 bilet satılıb.**




Bu barədə “Sumqayıt” klubunun mətbuat xidməti məlumat yayıb.

Oyunu canlı izləmək istəyən azarkeşlər biletləri iTicket.az, 1 saylı Sumqayıt ASAN Xidmət mərkəzindən, iyulun 22-dən (stadiondakı texniki problemlərə görə bu tarix iyulun 20-dən 22-nə keçirilib) isə Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun kassasından əldə edə bilərlər.

Qeyd edək ki, ilk matç iyulun 25-də evdə, cavab qarşılaşması isə 31-də Macarıstanda keçiriləcək.

***L.QURBANOVA***
***XQ***

## “Tullantı ver, ekoçanta al”

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, “Araz” supermarketlər şəbəkəsinin dəstəyi ilə “Tullantıları ekoçantaya dəyiş” aksiyası “Araz” supermarketin Nəsimi rayonu filialında keçirilib.**



Nazirliyin mətbuat xidmətindən XQ-yə verilən məlumata görə, aksiya zamanı vətəndaşlar ümumi tutumu 382 litr olan plastik, 21 litr tutumu olan şüşə butulka və 36 ədəd işlənmiş batareya təhvil verərək əvəzində ekoçanta əldə ediblər.

Nazirlik əhali arasında tullantıların çeşidlənməsinin əhəmiyyətini vurğulamaq, təkrar emala dəstək olmaq məqsədilə keçirilən aksiyalarda fəal iştirak edən bütün vətəndaşlara təşəkkür edir, hər kəsi polietilen torbalar əvəzinə ekoçantalardan istifadəyə etməyə çağırır.

Maraq dünyamız

# Qranit adalar üzərində dövlət

**Dünyanın ərazisinə görə ən kiçik dövləti olan Vatikanın maraqlı cəhəti onun hüdudlarında sərhədçilərin dayanmamasıdır. Burada bütün sərhədlər divarla əhatə olunub. Afrika qitəsinin ən kiçik ölkəsinin maraqlı cəhəti isə buradakı adaların bəzilərinin qranit daşlarından ibarət olmasıdır.**



Dünya coğrafiyasına aid olan internet materiallarında göstərilir ki, Seyşel Adaları Respublikası Şərqi Afrikada, Hind Okeanının qərb sahillərində, ekvatordan cənubda yerləşən ada dövlətidir. Adalar Afrika qitəsindən 1600 kilometr aralıda, Madaqaskar adasından şimalda yerləşir. Ölkə ərazisindəki 115 adanın (onların bir çoxu mərcan adalarıdır) cəmi 33-də insan yaşayır.

445 kvadratkilometr ərazisi olan ölkənin paytaxtı ən böyük ada olan Mahedə adasında salınmış Viktoriya şəhəridir. Bu şəhərdə beynəlxalq hava limanı da var. Bu kiçik respublikanın əhalisi 98 min nəfərdən bir az çoxdur. Rəsmi dövlət dili fransız və ingilis dilləridir. Qeyd edilir ki, hər il milyonlarla turist bu möhtəşəm adaları görmək üçün dünyanın müxtəlif ölkələrindən ora gəlir.



Buranı turistlər və alimlər üçün maraqlı edən faktlardan biri də odur ki, Seyşel adaları əsrlər boyu dəniz quldurlarının məskəni olmuşdur. Bu adalarda itirilmiş pirat xəzinələri haqqında əfsanələr hələ də danışılır. Mətbuat yazır ki, Mahe adasının Bel Ombre bölgəsində məşhur pirat Olivier La Vasserin milyonlarla funt-sterlinq dəyərində olan xəzinəsinin basdırıldığı da güman edilir.

O da bildirilir ki, Seyşel adaları 1505-ci ildə portuqallar tərəfindən kəşf olunsa da, 1768-ci ildə fransızlar sahib çıxmışlar. 1794-cü ildə Böyük Britaniya Krallığının hakimiyyəti altına keçən bu ölkə 1976-cı ildə müstəqilliyini əldə etmişdir. Ölkənin əhalisi başdan-başa fransız, ispan, asiyalı və afrikalı insanların bir-biri ilə qaynayıb-qarışması nəticəsində meydana gələn mələz insanlardır. Burada azsaylı müsəlmanlar və hindular yaşasalar da, əhalinin əksəriyyəti katolikdir.

Ölkənin iqtisadiyyatını əkinçilik və turizm təşkil edir. Adalarda yetişən banan, şirin kartof, manyok və ondan alınan nişasta, kokonat, darçın və vanil xaricə ixrac edilir. Yəni ölkənin əsas istehsal obyektləri qida sənayesi üzrədir. Elə dəniz məhsulları da bu sənaye müəssisələri vasitəsilə ixrac olunur. Seyşel adalarının məhsulları daha çox Böyük Britaniya, Fransa, Cənubi Afrika, Yəmən və Pakistan ölkələrinə göndərilir. Əcnəbilər Seyşeldən tısbağa qabığı, akula üzgəci və balıq məhsullarını daha çox alırlar.

Azərbaycan Respublikası ilə Seyşel Adaları Respublikası arasında beynəlxalq münasibətlərə əsaslanan əməkdaşlıq mövcuddur. Ölkələrimiz arasında diplomatik münasibətlər 2 noyabr 1994-cü ildə qurulmuşdur.

***İttifaq MİRZƏBƏYLİ***



## Yağışlı, küləkli və dumanlı bazar günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 21-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gündüz kəsiləcək.**

Mülayim şimal-qərb küləyi əsəcək, səhər və gündüz bəzi yerlərdə arabir güclənəcək. Gecə 20-25°, gündüz 30-34° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 753 mm civə sütunundan 756 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 60-70 , gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq.Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 30-35°, dağlarda gecə 13-18°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Çin Günəşə qoşaqülləli “körpü” salır

**Çinin Quansu əyalətində hər birinin hündürlüyü 200 metr olan iki qüllə inşa edilib. Qüllələr konsentrik dairələrdə düzülmüş 30 min güzgüdən ibarət sahələrlə əhatələnib. Yeni enerji obyektinin ildə 1,8 milyard kilovat-saatdan çox elektrik enerjisi istehsal edəcəyi gözlənilir.**



Enerji istehsal etmək üçün isə buxar turbinləri hərəkətə gətirilməlidir. Bu məqsədlə Günəş işığını toplayan və əks etdirən güzgülərdən istifadə edilir. Beləliklə, stansiyaların əsas fərqlənmə xüsusiyyəti ondan ibarətdir ki, geniş sahəyə düşən Günəş şuaları güzgülər vasitəsi ilə qüllələrə yönəldilir, istilik enerjisi daha sonra elektrik enerjisinə çevirilir. Güzgülərin düzülüşü və qoşa qüllənin olması isə Günəş işığını qüllələrin hər birinə maksimum effektlə əks etdirməyə və elektrik stansiyasının səmərəliliyini 24 faizə çatdırmağa imkan verəcəkdir.

Yeni Günəş elektrik stansiyasının 2024-cü ilin sonunda istifadəyə veriləcəyi gözlənilir.

Günəş enerjisi (CSP) texnologiyası onilliklərdir ki, bütün dünyada mövcuddur. Çində isə ilk dəfə olaraq elektrik stansiyası həmişəki kimi, 1 qülləli deyil, 2 qülləli olacaq.

Hesablamalara görə, Günəş energetik qurğularının 50-ci enlikdən cənuba doğru yerləşən regionlarda istifadəsi olduqca əlverişlidir. Həmçinin Azərbaycanda ildə 300 günəşli və 270 küləkli günün olmasını nəzərə alsaq, demək olar ki, bu regionda Günəş energetikasının inkişafı daha perspektivlidir.

***PÜNHAN***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3130
SİFARİŞ 1575
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00